## Bağça müəllimlərinin sertifikasiyası ilə bağlı qaydalar hazırlanacaq



**Hazırda bağçalarda olan tərbiyəçi müəllimlərin sertifikasiyası ilə bağlı qaydaların hazırlanması istiqamətində iş aparılır.**

Qaydalar təsdiqləndikdən sonra ictimaiyyətə açıqlanacaq.

Bunu Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli ”Təhsilverənlərin sertifikatlaşdırılması” mövzusunda danışarkən deyib.

O bildirib ki, 2026-cı ilə qədər məktəbəqədər təhsil müəssisələrində çalışan müəllimlər də sertifikasiyaya cəlb olunacaq.

## “Rəhmət və ehtiramla anırıq”

Türkiyə səfiri Nuru Paşa ilə bağlı paylaşım edib



**Türkiyənin Azərbyacandakı səfiri Cahit Bağçı Nuru Paşanın anım günü ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir:

”Vəfatının 74-cü ildönümündə Qafqaz İslam Ordusunun komandiri və Bakı fatehi Nuru Paşanı rəhmət və ehtiramla anırıq. Ruhu şad, məkanı cənnət olsun”.


№ 40 (5801) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 3 mart 2023-cü il (cümə)





## BŞTİ-də yeni sektor yaradılıb, bəziləri birləşdirilib

**Elm və təhsil nazirinin müvafiq əmrinə əsasən, Bakı Şəhəri üzrə Təhsil İdarəsində (BŞTİ) optimallaşdırma istiqamətində görülən tədbirlər çərçivəsində struktur dəyişikliyi aparılıb.**

BŞTİ-dən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, dəyişikliyin əsas məqsədi BŞTİ-nin fəaliyyətində səmərəliliyin artırılması və idarəetmədə müasir yanaşmaların tətbiqinin təmin olunmasından ibarətdir.

Yeni struktura uyğun olaraq bəzi sektorlar fəaliyyət dairəsinin uyğunluğu nəzərə alınaraq birləşdirilib. Belə ki, Ümumi sektor və Hüquq sektoru birləşərək Hüquq, kargüzarlıq və vətəndaşlarla iş sektoru, Təminat və təchizat sektoru ilə Təsərrüfat sektoru birləşərək Təminat, təchizat və təsərrüfat sektoru adlandırılıb. Həmçinin Məktəbəqədər təhsilin təşkili sektoru yaradılıb, bəzi sektorların isə adları dəyişib.

*Qeyd edək ki, BŞTİ 10 sektordan, Təlimə Dəstək Mərkəzindən, 6 xidmət və əməliyyat mərkəzindən ibarətdir.*



## 10 dəqiqə ayaqüstü söhbət

Blinkenlə Lavrovun söhbətinin detalları açıqlanıb

**ABŞ-ın dövlət katibi Entoni Blinkenin Rusiya xarici işlər naziri Sergey Lavrovla söhbətinin detalları açıqlanıb.**

APA CNN-ə istinadən xəbər verir ki, Dehlidə G20 iclası çərçivəsində baş tutan ayaqüstü söhbət təxminən 10 dəqiqə çəkib. Blinkenlə birlikdə Dehlidə səfərdə olan dövlət departamentinin rəsmisi CNN-ə bildirib ki, söhbət zamanı dövlət katibi Rusiyanı Paul Uilanı azad etməyə və Yeni Start müqaviləsində iştirak etməyə çağırıb, həmçinin ABŞ-ın Ukraynaya dəstəyini vurğulayıb.

Rəsminin sözlərinə görə, bu görüş əvvəlcədən planlaşdırılmayıb və Sergey Lavrova Blinken özü yaxınlaşıb.

## Xilasetmə qüvvələrinin növbəti qrupu Vətənə dönüb



**Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarında iştirak edən Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələrinin daha 236 nəfərlik qrupu Vətənə qayıdıb.**

”Report”un əməkdaşı xəbər verir ki, xilasedicilər üçün Heydər Əliyev Beynəlxalq Hava Limanında qarşılanma mərasimi keçirilib. Tədbirdə FHN-nin Mülki müdafiə qoşunlarının komandanı general-leytenant İlham Abdullayev, Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi, daxili xidmət general-mayoru Füzuli Əsədov, Türkiyənin Azərbaycandakı səfirliyinin hərbi attaşesi general-mayor Zəkəriyyə Yalçın, general-mayor İlhan Şen, Media müşaviri Hüseyn Altınalan və mətbuat nümayəndələri iştirak ediblər.

*Qeyd edək ki, Türkiyənin Kahramanmaraş şəhərində baş vermiş zəlzələ ilə əlaqədar Azərbaycandan qardaş ölkəyə ümumilikdə 760 nəfər axtarış-xilasetmə heyəti gedib.*

# Bakıda Zirvə görüşü

Azərbaycanın iştirakı ilə yeni dünya düzəni qurulur




**“Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir”.**

Bunu Prezident İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında deyib. Dövlət başçısı bildirib ki, pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı olub:

”2020-ci ilin may ayında Qoşulmama Hərəkatının onlayn Zirvə toplantısında BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etmişdim. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı. Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər olunmasında liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini bir daha nümayiş etdirdi.

(səh.2)

## Xocalı görüşü tarixi hadisədir

Erməni vətəndaşlarımız gec-tez Azərbaycan cəmiyyətinə reinteqrasiya olunacaq



**Azərbaycan hökumətinin rəsmiləri və Qarabağın erməni icmasının nümayəndələri arasında baş tutan görüş ictimaiyyətdə geniş müzakirələrə səbəb olub.**

Fikir bildirənlərin əksəriyyəti bu cür təmasların vacib olduğunu deyiblər. Məlumat üçün bildirək ki, görüşdə Laçın dəhlizi və ətraf mühitin monitorinqi ilə bağlı məsələlər müzakirə edilib.

Görüş zamanı Azərbaycan Konstitusiyasına və qanunlarına uyğun olaraq Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycana reinteqrasiyasına dair müzakirələr də aparılıb.

(səh.4)



## Putinin Stavropol diyarına səfəri ləğv olunub

**Rusiya Prezidenti Vladimir Putin Bryansk vilayətindəki vəziyyətə görə Stavropol diyarına getməyəcək.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.

Onun sözlərinə görə, Putin Stavropolda pedaqoq ilinin açılışına həsr olunan tədbirdə onlayn iştirak edəcək.

Rusiya prezidentinin Stavropol diyarına səfəri bu günə planlaşdırılıbmış.

Qeyd edək ki, Rusiya tərəfi Ukrayna hərbçilərinin Bryansk vilayətinə hücum etməsi ilə bağlı məlumat yayıb.

## Hacı Şahin Həsənli birləşdirici dəyərmiş

Onun ölüm xəbərindən sarsılmayan, təəssüflənməyən olmadı



**Belə bir izdihamı, insan selini 2000-ci ilin avqustunda görmüşdüm.**

Azərbaycan Respublikasının Prezidenti, milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəy son mənzilə yola salınanda. Ümummilli Lider Heydər Əliyevin ölüm günü də belə oldu. İnsan seli, göz yaşları. İnsanların heç bir gözlənti, məcburiyyət olmadan, sadəcə vəfa borcunu yerinə yetirmək duyğusu və sevgisini izhar məqsədilə bir insanı son mənzilə yolçu etməsi nadir yaşanan hadisədir.

(səh.5)

## "Səs TV" və "Müsavat TV"-yə haker hücumları...

Hesabların ələ keçirilməsi aydın bir təəssürat yaradır ki, budəfəki hücumlar sadə və texniki müstəvidə baş verməyib

**Kifayət qədər izləyici kütləsinə malik olan “Müsavat TV” və “Səs TV” kanalları haker hücumuna məruz qalıblar.**

Mətbuat Şurasının yaydığı bəyanatda qeyd olunub ki, bu media orqanlarının emailləri ələ keçirilib, bazaları silinib. Mətbuat Şurası ölkəmizin digər aparıcı kütləvi informasiya vasitələrinin də oxşar xoşagəlməz aqibətlə üzləşəcəyi ehtimalının yaranmasından narahatdır. Hadisənin, demək olar, eyni vaxtda baş verməsi belə bir təhlükənin mövcudluğundan xəbər verir.

(səh.4)



## İki səfirin görüşü bəzi mətləblərdən xəbər verir

Bölgədə problemlərin varlığı və həllinin uzanması elə Rusiya və İranın siyasəti ilə bağlıdır

(səh.2)



## Brüssel artıq təşəbbüsü ələ alıb

Moskvanın bugünkü problemləri ilə təşəbbüsü yenidən öz əlində cəmləməsi qeyri-mümkündür

(səh.4)




# Bakıda Zirvə görüşü

## Azərbaycanın iştirakı ilə yeni dünya düzəni qurulur

**"Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir". Bunu Prezident İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında deyib. Dövlət başçısı bildirib ki, pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı olub:**

"2020-ci ilin may ayında Qoşulmama Hərəkatının onlayn Zirvə toplantısında BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etmişdim. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı. Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər olunmasında liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini bir daha nümayiş etdirdi. Azərbaycan əksəriyyəti bizim Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib".

**"Azərbaycan Qoşulmama Hərəkatının institusional inkişafına güclü dəstək verir"**

Prezident bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatının institusional inkişafına güclü dəstək verir: "Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır. Aparıcı beynəlxalq təşkilatların qərarları ya icra olunmur, ya da selektiv yanaşma və ikili standartlar tətbiq edilir". Dövlət başçısı suverenliyin və ərazi bütövlüyünün pozulması, dövlətlərin daxili işlərinə müdaxilə hallarının daha çox müşahidə olunduğunu vurğulayıb. Prezident deyib ki, indi dünya "Soyuq müharibə"nin sona çatmasından bu yana baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir. Dövlət başçısı qeyd edib ki, bu qarşıdurmanın fəsadları dünyanın qalan hissəsində də hiss olunur.

**"Qoşulmama Hərəkatı yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir"**

Ölkə rəhbəri vurğulayıb ki, Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir: "Təəssüf ki, bu gün biz neokolonializm meylinin artdığını müşahidə edirik. Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir".

**"Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır"**

Dövlət başçısı bəyan edib ki, Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləyib: "Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq".



**"Azərbaycan Qoşulmama Hərəkatının ehtiyacı olan üzvlərinə yardım göstərməyə davam edəcək"**

Prezident deyib ki, COVID-19 pandemiyası dövründə olduğu kimi, Azərbaycan Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcək: "Bunlar Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləməkdir. Məmnuniyyətlə elan edirəm ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır. İnanıram ki, Qoşulmama Hərəkatının üzvləri və beynəlxalq ictimaiyyətin digər üzvləri Azərbaycanın təşəbbüsünü dəstəkləyəcək və bizə qoşularaq postpandemiya bərpası dövründə ehtiyacı olan ölkələrə dəstək verəcəklər".

**"BMT Təhlükəsizlik Şurası bu gün səmərəli deyil"**

Prezident bildirib ki, dünyada uzun illərdir müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatlardır: "BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir". Təhlükəsizlik Şurasının bəzi qətnamələrinin bir neçə günün içində icra olunduğunu vurğulayan dövlət başçısı bildirib: "Azərbaycana gəldikdə isə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmamışdır". Ölkə rəhbəri qeyd edib ki, 2020-ci ildə Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi və Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi: "Yəqin ki, bu hadisə BMT-nin əsası qoyulandan bəri dünyada ilk dəfə idi baş verirdi".

**"Azərbaycanın azad olunmuş əraziləri klassik urbisid, kultursid və ekosid nümunələridir"**

Prezident bildirib ki, Azərbaycanın işğaldan azad olunmuş əraziləri klassik urbisid, kultursid və ekosid nümunələridir. Dövlətimizin başçısı bildirib ki, 2020-ci ilin sonundan etibarən Qoşulmama Hərəkatına üzv ölkələr də daxil olmaqla, bir çox ölkədən minlərlə xarici diplomat, jurnalist, QHT üzvü və siyasətçi işğaldan azad olunmuş əraziləri ziyarət edərək Ermənistan tərəfindən törədilmiş vəhşiliklərin şahidi olub: "Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300 azərbaycanlı mina partlayışı nəticəsində həlak olub və ya yaralanıb".

**"Biz müasir konsepsiyalardan istifadə edərək yeni şəhər və kəndləri sıfırdan yaradırıq"**

Dövlət başçısı qeyd edib ki, Azərbaycan hökuməti işğaldan azad olunmuş ərazilərdə 2021-2022-ci illərdə yenidənqurma işlərinə 4 milyard ABŞ dollarına yaxın pul xərcləyib: "Bu il bu məqsəd üçün ən azı 1,7 milyard ABŞ dolları məbləğində vəsaitin ayrılmasının planlaşdırıldığını vurğulayan dövlət başçısı deyib. Biz müasir şəhərsalma - "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarından istifadə edərək yeni şəhər və kəndləri sıfırdan yaradırıq. Bu, milli hökumətlər tərəfindən postmünaqişə dövründə icra olunan nadir və daha öncə görünməmiş bir inkişaf, yenidənqurma modelidir".

**"Azərbaycan xüsusi milli Dayanıqlı İnkişaf Məqsədinin müəyyən edilməsini nəzərdən keçirir"**

Dövlət başçısı deyib ki, Azərbaycan hazırda xüsusi milli Dayanıqlı İnkişaf Məqsədinin müəyyən edilməsini nəzərdən keçirir: "Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə görür, çünki minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini ləngidir. Azərbaycan minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Biz Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə dəvət edirik".

**Prezident Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif edib**

Prezident İlham Əliyev Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif edib: "Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, mən səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif etmək istəyirəm". Prezident Azərbaycanın ədalətli mövqeyini dəstəklədiklərinə görə Qoşulmama Hərəkatına üzv ölkələrə təşəkkür edib: "Münaqişənin bitməsindən qısa müddət sonra Azərbaycan sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsipi Ermənistana təqdim edib. Bu fürsətdən istifadə edərək mən Qoşulmama Hərəkatına üzv ölkələrə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə, həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə birtərəfli və qərəzli bəyanatların qəbuluna imkan verməməkdə göstərdikləri qətiyyətə görə təşəkkür etmək istəyirəm".

**İsmayıl**



# Özbəkistanla strateji münasibətlər daha da dərinləşir

## 2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 64 faiz artıb

**"Mütəmadi görüşlərimiz Özbəkistan-Azərbaycan strateji tərəfdaşlığına tamamilə yeni məzmun gətirib". Bunu Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə deyib. Özbəkistan rəhbəri bildirib ki, ikitərəfli münasibətlərdə böyük sıçrayış var:**

"Real nəticələr var və yəqin ki, bizim hər bir görüşümüz münasibətlərimizə, razılaşmalarımıza impuls verir. Düşünürəm ki, bizim ciddi nəzarət edəcəyimiz komandalarımız hər şeyi vaxtında yerinə yetirəcək. Siz artıq komandalarımızın intensiv görüşlərini qeyd etdiniz. Ötən ilin dekabrında bizim Baş nazirin mavini Xocayevlə görüşlər olub. Bu yaxınlarda mən Mikayıl Cabbarovu qəbul etmişəm. Biz çox uzun müddət danışdıq və bütün məsələləri müzakirə etdik. Bu, bizim münasibətlərimizin nəticəsidir ki, regionlar görüşür və belə işgüzar forumun keçirilməsi çox şeydən xəbər verir. Siz indi yeni layihələri qeyd etdiniz, sanki sadəcə görüşdük, amma buna çox ciddi hazırlaşırdıq. Layihələr 800 milyon dollar dəyərindədir. İlham Heydər oğlu, bu, onu göstərir ki, əslində, bizim nəhəng potensialımız var". Şavkat Mirziyoyev vurğulayıb ki, tezliklə avtomobil istehsalı üzrə ciddi nəticələr olacaq: "Bu, martda istehsalına başlanılacaq 3 min və sentyabrda buraxılacaq 7 min yeni marka avtomobillərdir. Bu, tamamilə başqa markadır, ayrı keyfiyyətdir. İkincisi, biz pambıq klasteri haqqında razılığa gəlmişik. Bizim hər iki komandamız artıq razılaşıb. Bunun üçün torpaq sahələri ayrılıb. Düşünürəm ki, biz burada danışdığımız nəticələri əldə edə bilərik. Bizdə ipəkçilikdə çoxlu problemlər var idi, lakin fikirləşirəm ki, onlar çox yaxşı həll olunur. Bizim ipəkçilik müəssisələrinin rəhbərləri mənə məruzə edirlər ki, onlar öz evlərində işləyirlər, deyirlər bizim üçün evdə bütün şərait yaradılıb. Biz məruzə etmişik ki, maşınqayırmada, həmçinin bütün məsələlər, preferensiyalar, parlament səviyyəsində həll olunur. Bu artıq onu göstərir ki, perspektivdə bizim bu sahələrdə də çoxlu birgə layihələrimiz olacaq. Neft-qaz sahəsində SOCAR-la böyük layihə hazırlayırıq. Artıq layihənin texniki-iqtisadi əsaslandırması hazırlanır və düşünürəm ki, bu proses tədricən inkişaf etdiriləcək".

**Millət vəkili Vüqar Bayramov deyib ki, son illər tərəflər arasında strateji münasibətlərin daha dərinləşməsi müşahidə olunur. Parlament üzvü vurğulayıb ki, 2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 64 faiz artaraq 111 milyon 903 min dollardan 183 milyon 307 min dollaradək yüksəlib:** "2020-ci il ilə müqayisədə isə ticarət dövriyyəmiz 2 dəfədən çox artıb. Azərbaycan Özbəkistan ilə eyni zamanda iqtisadiyyatın digər, çox fərqli sahələrində əməkdaşlıq edir. Nəqliyyat, logistika, kənd təsərrüfatı ilə yanaşı birgə sərmayə qoyuluşları da prioritetləşməkdədir. Hər iki ölkə müxtəlif beynəxalq qurumlarda, o cümlədən Türk Dövlətləri Təşkilatında sıx və məhsuldar əməkdaşlıq formalaşıdırıb. Özbəkistan müasir standartlara uyğun olaraq Füzuli şəhərində orta məktəb inşaatını tamamlamaq üzrədir. Bu isə tərəflərin həmçinin humanitar və digər istiqamətlərdə də əməkdaşlığından xəbər verir. Dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri ölkələr arasında münasibətlərin inkişafına xüsusi təkan verir. Bu baxımdan, Özbəkistan Prezidentinin Azərbaycana səfəri də münasibətlərimizin daha da dərinləşməsinə töhfə verəcək".

**İsmayıl**

# İki səfirin görüşü bəzi mətləblərdən xəbər verir

## Bölgədə problemlərin varlığı və həllinin uzanması elə Rusiya və İranın siyasəti ilə bağlıdır

**"Məlum səbəblərə görə, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi Bakıda bir çox tədbirə dəvət olunmur, rəsmi görüşləri də yox dərəcəsindədir".**

*Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, Prezidentin köməkçisi Hikmət Hacıyev ara-sıra səfirlə görüşüb fikir mübadiləsi aparırdı. Ancaq Azərbaycanın İrandakı səfirliyinə terror hücumundan sonra bu görüşlərə də ara verilib:* "İki ölkə arasında gərginliyə görə İran ilk dəfə bu il Bakıda inqilabın 44-ci ildönümünü keçirə bilmədi. Keçirsəydi belə, rəsmi və vətəndaş cəmiyyəti səviyyəsində iştirak olmayacaqdı. Ukrayna müharibəsinə görə Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov da Bakıda bir çox ölkənin müstəqillik günü tədbirlərinə dəvət olunmur. Bu vəziyyətdə qalan iki səfir öz aralarında görüşməyə qərar veriblər. Yayılan məlumatda Seyid Abbas Musəvinin Mixail Boçarnikovla Cənubi Qafqaz regionunda baş verən son hadisələri, "3+3" təşəbbüsünü, eləcə də iki ölkə arasında iqtisadi sahədə əməkdaşlığı, eyni zamanda Şimal-Cənub dəhlizini müzakirə ediblər. Bu, aysberqin görünən tərəfidir. Hər iki səfir paytaxtlarından təlimat alıblar ki, "Sizin görüşünüz çalışdığınız ölkəyə və Qərbə mesaj olacaq ki, Rusiya və İranın iştirakı olmadan bölgənin problemlərini həll etmək mümkün deyil".



*Ekspert qeyd edib ki, bölgədə problemlərin varlığı və həllinin uzanması elə Rusiya və İranın siyasəti ilə bağlıdır:* "Rusiya erməni separatizmini idarə edir. İran isə Ermənistana Zəngəzur dəhlizini bağlı saxlamağı məsləhət görür. Rusiya və İran nə qədər müqavimət göstərsələr də, Türkiyənin, Avropa İttifaqının və ABŞ-nin Cənubi Qafqazda artan fəallıqlarına mane ola bilmirlər. ABŞ-nin Azərbaycanda müvəqqəti işlər vəkili Qevara İranla sərhədi - Gömrük Komitəsinin Astara şəhərindəki idarəsini ziyarət etməklə Tehrana bir başqa mesajı göndərib".

**İsmayıl**

# Pentaqonun iddiaları realdır

## İran atom silahına sahib olmaq istəyir və bütün beynəlxalq hüquq normalarını növbəti dəfə kobud formada tapdalayır

**ABŞ müdafiə nazirinin siyasi məsələlər üzrə müavini Kolin Kalın deyib ki, İran 12 günə bir nüvə bombası üçün material hazırlaya bilər. Onun sözlərinə görə, İrana bir nüvə bombası üçün material hazırlamağa təxminən 12 gün lazım olacaq:**

"2018-ci ildə əvvəlki administrasiya İranla nüvə sazişindən çıxmaq qərarına gələndə, bir parçalana bilən bomba hazırlamaq üçün Tehrana təxminən 12 ay lazım idi. İndi təxminən 12 gün lazımdır".

**Politoloq Tural İsmayılov "Şərq"ə bildirib ki, İranın nüvə zənginləşdirilməsi üzrə sazişdən imtina etməsindən sonra ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) bu iddiası real hesab olunmalıdır:** "Nəzərə alaq ki, heç bir formada əsası olmayan məsələdə İranın nüvə və hərbi potensialını şişirtmək Qərbin informasiya savaşında mövqelərini möhkəmləndirmir. O baxımdan bu sahədə Pentaqonun iddialarına inanmalıyıq. İran uzun müddətdir müxtəlif bəhanələr gətirərək qlobal aləmdə nüvə zənginləşdirilməsi ilə bağlı danışıqlarda hansısa irəliləyişin əldə olunmasına mane olub. İran ölkə daxilində baş verən etirazlar fonunda daha radikal qərarlar alıb. Aqressiv qərarlar içində nüvənin zənginləşdirilməsi məsələsi də yer almaqdadır. İran atom silahına sahib olmaq istəyir və bütün beynəlxalq hüquq normalarını növbəti dəfə kobud formada tapdalayır. Ancaq hesab edirəm ki, İran hətta son raunda qədər getsə belə, Tehranın bu təşəbbüsünün qarşısı alınacaq. ABŞ və İsrail heç vaxt İranın atom silahına sahib olmasına imkan verməyəcək. Hətta İran prosesi israrla davam etdirərsə, danışıqlardan qaçarsa, hərbi əməliyyatlar da başalaya bilər".



**İsmayıl**

# Azərbaycana liderliyinə görə təşəkkür etdilər

## Bütün dünya Qoşulmama Hərəkatının kollektiv səylərindən öyrənə bilər

**Martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas qrupunun Zirvə görüşü keçirilib. Zirvə görüşündə 70-ə yaxın ölkənin dövlət və hökumət başçıları, BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösi, Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili, Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Antonio Vitorino, BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovaya, eyni zamanda nazirlər, nazir müavinləri, səfirlər və s. qatılıblar.**

Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas qrupunun Zirvə görüşündə yüksəksəviyyəli nümayəndələrin iştirakı bir daha onu göstərir ki, Azərbaycan təşkilatın fəaliyyətinə mühüm töhfələr verir. Eyni zamanda Azərbaycanın növbəti dəfə qlobal məsələlərin müzakirə olunduğu mühüm toplantıya ev sahibliyi etməsi ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin təzahürüdür.

**“Azərbaycanın sədrliyi ilə QH-nin beynəlxalq aləmdə reputasiyası güclənib”**

Özbəkistan Prezidenti Şövkət Mirziyoyev deyib ki, pandemiyanın çətinliklərinə baxmayaraq, platforma çərçivəsində həmrəyliyimiz və əməkdaşlığımız gücləndirilib: ”Qoşulmama Hərəkatının parlament qurumunu və gənclər şəbəkəsini yaratdıq. Azərbaycanın sədrliyi ilə QH-nin beynəlxalq aləmdə reputasiyası güclənib. Biz Azərbaycana səmərəli sədrliyinə görə təşəkkür edirik və təşkilata uğurlar arzu edirik”. Özbəkistan Prezidenti qeyd edib ki, BMT-də gələcəkdə islahatlar olarsa, QH-nin Təhlükəsizlik Şurasında yeri olmalıdır. O, həmçinin bu platformadakı ölkələri terrorizmlə mübarizədə səylərini daha da gücləndirməyə çağırıb. Özbəkistan Prezidenti QH çərçivəsində monitorinq və araşdırma mərkəzinin yaradılmasını təklif edib və əlavə edib ki, bu mərkəz Özbəkistanda da yerləşə bilər.

**“Azərbaycanın “yaşıl enerji”yə necə keçdiyini görürük və bundan təsirlənirik”**

BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Çaba Koroşi deyib ki, dünyanın ehtiyac olduğu zamanda Qoşulmama Hərəkatı öz səylərini səfərbər etdi. O bildirib ki, dünya ehtiyac olduğu dövrdə Qoşulmama Hərəkatı səylərini səfərbər edib: ”COVID-19 sadəcə bizim gələcəyimizə bir kiçik pəncərədir, alimlər artıq gözləyirlər ki, yaxın gələcəkdə, 10 il ərzində yeni pandemiyalarla üzləşə bilərik, bununla bağlı 25 faiz şans var. Biz transformativ həll yolu üzərində işləməliyik. Əsas qaz və neft istehsalçısı olan Azərbaycanın yaşıl transformasiya etdiyini, ”yaşıl enerji”yə necə keçdiyini görürük və bundan təsirlənirik. Bu istiqamətdə bütün ölkələrə çağırış edirik”. O deyib ki, bu həm də Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün vacibdir.

**ÜST-nin baş direktoru Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək qiymətləndirib**

ÜST-nin baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək qiymətləndirib: ”Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək qiymətləndirirəm və təşəkkür edirəm. O, bütün ölkələri Qoşulmama Hərəkatının kollektiv səylərini öyrənməyə çağırıb: ”Bütün dünya QH-nin kollektiv səylərindən öyrənə bilər”. Qebreyesus deyib ki, indi hər bir ölkə öz üzərinə düşəni etməli, gələcək pandemiyalara hazırlıqlı olmalı və pandemiyadan sonrakı bərpada iştirak etməlidir”.

BMT baş katibi Antonio Quttereşin müraciətində qeyd olunub ki, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə



üzrə Təmas qrupunun Zirvə görüşünə ev sahibliyi etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Azərbaycana təşəkkür edir: ”İllər keçdikcə beynəlxalq platformalarda Qoşulmama Hərəkatının rolu artır. 21-ci əsrdə Qoşulmama Hərəkatının çoxtərəflilik baxımından əhəmiyyəti daha da artır. Davamlı inkişaf, iqlim dəyişikliklərinə qarşı mübarizə tədbirləri və sülhü qorumaq üçün tədbirlər görüb. Pandemiya dünyada hər kəsə təsir göstərib, 6,5 milyon insan dünyasını dəyişib, bərabərsizliyi daha da artırıb. Pandemiya eyni zamanda işsizliyə də böyük təsir göstərib, qadınlar, gənclər işsiz qaldılar. Pandemiya sarsıdıcı təsirə malik olub”. Qeyd edilib ki, insan kapitalı aşağı olan ölkələrə pandemiyaya daha mənfi təsir göstərib: ”Bərpa tədbirlərini effektiv etmək istəyiriksə, qlobal idarəetmə sistemində müdaxilə etməliyik. Biz qlobal idarəetmə arxitekturasını elə qurmalıyıq ki, çoxtərəfli platformalar öz mandat və səlahiyyətləri çərçivəsində işləri görə bilsinlər və Dayanıqlı İnkişaf Məqsədləri üçün tədbirlər görə bilsinlər. Beləliklə, Qoşulmama Hərəkatının üzv sayına görə çoxtərəfli əməkdaşlığın gücləndirilməsində mühüm rol oynamaq imkanı var”.

**“Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür etmək istəyirəm”**

İraq Prezidenti Əbdüllətif Camal bildirib ki, İraq qlobal pandemiya böhranından çıxmağa davam edir, infrastruktur, sosial ehtiyaclar, iqtisadi şaxələndirmə və kollektiv tədbirlər vasitəsilə bu işləri görməyə davam edir: ”İraq hökuməti iqlim dəyişikliyi, ərzaq çatışmazlığı və su resurslarının qıtlığı ilə bağlı məsələlərə də xüsusi diqqət yetirir. Bütün bunlar bizim sosial stabilliyimizə təsir göstərir. Hazırda təhlükəsizliyin təmininə xüsusi diqqət yetiririk. Xüsusi dəstək vasitəsilə ölkədə kənd təsərrüfatına və suyun effektiv idarə edilməsinə vəsait qoymalıdır. İqlim dəyişikliyi ilə bağlı riskləri azaltmaq istiqamətində işlər görməliyik”. Əbdüllətif Camal qeyd edib ki, ölkəsi müharibədən, dağıntılardan əziyyət çəkib, indi isə fərqli bir ölkədir: ”Biz bu acınacaqlı təcrübədən, silahlı münaqişələrdən sonra anlayırıq ki, ancaq dialoqla sülh quruculuğu mümkündür. Biz konstruktiv dialoqla zorakı ekstremizmin aradan qaldırılmasına çalışırıq. İraq regional tərəfdaşlıqda da müsbət rolunu davam etdirməyə hazırdır. Biz regional təhlükəsizliyə və enerji təhlükəsizliyinə töhfə verməyə hazırıq”.

**Türkmənistan Prezidenti Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini effektiv adlandırıb**

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov sammitin keçirilməsi təşəbbüsünə görə azərbaycanlı həmkarına təşəkkür edib. O bildirib ki, pandemiya qlobal inkişafa ciddi təsir edib, bu həm siyasi əlaqələr, həm sosial-iqtisadi, həm də humanitar sahələrə aiddir: ”Qoşulmama Hərəkatı humanizmi, ədaləti və bərabərliyi təbliğ edir. Təşkilatın əməkdaşlıq üçün aydın gündəliyi var. Birgə səylər nəticəsində biz pandemiyanın nəticələrinin öhdəsindən gələ bilərik. Əməkdaşlığımızı gücləndirməliyik. Mən əminəm ki, hər bir ölkənin öz nailiyyətləri var və biz bir-birimizin nailiyyətlərini öyrənə bilərik. Təklif edirik ki, biz vahid informasiya bankı yaradaq və bütün ölkələrin buna girişi olsun. Tibb sahəsində əməkdaşlığı gücləndirməli və təması artırmalıyıq. Bununla bağlı təşəbbüs irəli sürə bilərik. Qlobal səviyyədə koordinasiyalı şəkildə işləmək vacibdir. Tibb sahəsində əməkdaşlıq üçün mexanizm nəzərdə keçirə bilərik”.

**“Qoşulmama Hərəkatı yarandığı dövrdə olduğu kimi, bu gün də dünyada sülh və sabitlik aktualdır”**

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç bildirib ki, Qoşulmama Hərəkatı yarandığı dövrdə olduğu kimi, bu gün də dünyada sülh və sabitlik aktualdır: ”Koronavirus uzunmüddətli mənfi təsirlərə səbəb olub. İqtisadi çətinliklər də artıb, yoxsul ölkələr bundan daha çox əziyyət çəkib. Peyvəndlər, qoruyucu vasitələrlə bağlı bu ölkələrdə böyük çətinliklər müşahidə olundu. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında fərqlər artdı. Bununla belə, beynəlxalq təşkilatlar inkişaf etməkdə olan ölkələrə dəstək verirdilər”. Tsviyanoviç qeyd edib ki, silahlı münaqişələr, geosiyasi rəqabət yönündə yeni problemlər ortaya çıxıb: ”Çağırışlar və çətinliklər azalmayıb, yox olmayıb. Buna görə də inanıram ki, bu Zirvə Görüşü ilə beynəlxalq ictimaiyyətin postpandemiya və bərpa prosesinə diqqətini daha da artıra bilərik”. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri nəzərə çatdırıb ki, dialoqa və siyasətə qalib gələn silahlı münaqişələr və təzadlar var: ”Müharibələrin hansı nəticələrə səbəb olduğunu görürük. Ukraynada və digər münaqişələrdə minlərlə insan qətlə yetirilir. Müharibələrin olmaması çox önəmlidir. Sülh və birgə yaşamaq imkanı, qarşılıqlı ərazi bütövlüyünə və suverenliyə hörmət yenə önəmlidir. Mən Bosniya və Herseqovinada da bunu təşviq edirəm”.

**“Azərbaycan hökumətinə bu vacib görüşü təşkil etdiyi üçün minnətdaram”**

Kubanın vitse-prezidenti Salvador Antonio Valdes Mesa pandemiyadan sonrakı bərpa dövrünün mürəkkəb vəzifə olduğunu bildirib: ”Pandemiya dövründə çox sayda insan həyatını itirdi ki, bu, qlobal səviyyədə ağır itkidir. Pandemiyadan sonra ölkələr maliyyə çətinlikləri ilə üzləşib”. Salvador Antonio Valdes Mesa qeyd edib ki, xüsusilə də Kuba illərdir üzləşdiyi maliyyə blokadasına görə çətinliklərlə üzləşib: ”Ancaq bütün bu çətinliklərə baxmayaraq, Kuba 5 vaksin ayırdı, əhalimizin 93 faizi vaksinasiya olundu və bu, ən yüksək göstəricilərdən idi. Biz blokadalara görə yaratdığımız vaksini ixrac edə bilmədik. Biz pandemiya dövründə müxtəlif ölkələrə tibb dəstək, həkimlər göndərdik”. Vitse-prezident QH ölkələrini platforma çərçivəsində qabiliyyətlərin inkişafı ilə bağlı mexanizmi yaratmağa çağırıb: ”Kuba inkişaf etməkdə olan ölkələrin maraqlarını hər zaman müdafiə edəcək”.

**“AEBA ilə Azərbaycan arasında münasibətlər yüksək səviyyədədir”**

Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) baş direktoru Rafael Qrossi bildirib ki, Azərbaycanla münasibətlərimiz yüksək səviyyədədir. O, çox fəal ikitərəfli əməkdaşlığın olduğunu bildirib: ”AEBA müxtəlif sahələrdə Azərbaycana yardım edir”. AEBA baş direktoru bu əməkdaşlığın xüsusilə də kənd təsərrüfatı sahəsində dərmanlarla bağlı olduğunu vurğulayıb. Qrossi deyib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə çox fəal olub və liderlik nümayiş etdirib: ”Təbii ki, Hərəkatın daimi gündəliyi var. Ancaq düşünürəm ki, çox təcili məsələlərin həlli və müzakirəsi istiqamətində Azərbaycan çox aktiv olub”, - AEBA-nın baş direktoru vurğulayıb. Qrossi qeyd edib ki, Azərbaycan COVID-19 böhranı və onun nəticələrinin həlli istiqamətində platforma çərçivəsində fəal işləyir: ”Mən bütün bu səyləri dəyərləndirirəm”.

**Təmas qrupunun Zirvə görüşündə Azərbaycan Prezidentinin təşəbbüsləri yüksək qiymətləndirilib**

Əlcəzairin Baş naziri Ayman Benabderrahman bildirib ki, Rusiya-Ukrayna müharibəsi ərzaq, dərman tədarükü ilə bağlı yeni problemlər yaradıb: ”Əlcəzair hər zaman mehriban qonşuluğu dəstəkləyib. Əlcəzair pandemiya dövründə peyvəndlərə bərabər çıxış təmin edilməsini dəstəkləyib və bu sahədə qlobal fonda da maliyyə dəstəyi verib. Əlcəzair BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini dəstəkləyir”. Əlcəzairin Baş naziri qeyd edib ki, beynəlxalq problemlər səyləri birləşdirməyi tələb edir. Keniya Baş Nazirlər Kabinetinin katibi Musalia Mudavadi Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin peyvəndlərlə bağlı təşəbbüsünü dəstəklədiyini vurğulayıb. Efiopiya Baş nazirinin müavini Demeke Mekonnen Hassen tədbirə dəvətə və qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə, Azərbaycan xalqına təşəkkür edib. Efiopiyada 2022-ci ildə daxili münaqişə və bu münaqişənin həlli üçün danışıqlar nəticəsində saziş imzalandığını xatırladan Demeke Mekonnen Hassen bu sahədə təşəbbüsə dəstək verən ölkələrə təşəkkür edib: ”Qoşulmama Hərəkatının institusional inkişafı önəmlidir. Efiopiya Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılmasını və bu sahədə yeni təşəbbüsləri dəstəkləyir. Mən bütün üzv ölkələri yeni qlobal çağırışlar fonunda Qoşulmama Hərəkatınun rolunun artırılması üçün səyləri artırmağa çağırıram”.

**“Biz birgə iqlim dəyişikliyi, su çatışmazlığı problemi ilə birgə mübarizə aparmalıyıq”**

Serbiya Baş nazirinin birinci müavini, xarici işlər naziri İvica Daçiç Azərbaycan Prezidentinə Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü təşəbbüslərə görə təşəkkürünü çatdırıb: ”Pandemiya bir sıra beynəlxalq strukturların effektsizliyini ortaya qoydu. Bu yaxınlarda Türkiyə və Suriyada baş verən dağıdıcı zəlzələlər də bu sahədə lazımi addımların atılmasının vacibliyini ortaya qoydu. Pandemiya dövründə bir sıra ölkələr peyvənd tədarükündən imtina edirdi. Serbiya isə bir sıra Afrika ölkələrinə peyvəndlər çatdırdı. Buna görə də biz Azərbaycanın təşəbbüsünü inkişaf etməkdə olan ölkələrə yardım edilməsi ilə bağlı təşəbbüsünü dəstəkləyirik. Bizim fəaliyyətimiz çoxvektorlu olmalıdır. Biz birgə iqlim dəyişikliyi, su çatışmazlığı problemi ilə birgə mübarizə aparmalıyıq”. İvica Daçiç nəzərə çatdırıb ki, Avropa İttifaqının dəstəyi ilə Serbiya Kosova ilə sülh danışıqları aparıb: ”Qoşulmama Hərəkatı hər zaman Serbiyanın dəstəyinə əmin ola bilər, biz bütün dünyada sülhü bərpa etmək üçün səyləri birləşdirməliyik”.

**“Bu gün ən kiçik rayonda belə infeksiya ilə mübarizə bölməsi, yaxud bu sahədə kiçik xəstəxanalar var”**

Belarus Baş nazirinin müavini İqor Petrişenko Azərbaycanın pandemiya ilə birgə mübarizə sahəsində təşəbbüsünü yüksək dəyərləndirib: ”Pandemiya dünya birliyinin birgə çağırışlar qarşısında nə dərəcədə həmrəy olduğunu ortaya qoydu. Təəssüf ki, peyvənd müharibəsinin şahidi olduq. Səhiyyə sahəsində də problemlər üzə çıxdı. Belarus Prezidenti Aleksandr Lukaşenko bildirib ki, pandemiya milli dövlətlərin güclü olmasının zəruriliyini ortaya qoydu. Belarus sərhədləri bağlamadı, daxili resurslarını səfərbər etdi. Belarus total karantinə getmədi. Bizim unikal metodumuz effektivliyini ortaya qoydu. Belarusun fəaliyyəti beynəlxalq təşkilatlar səviyyəsində yüksək qiymətləndirildi. Bu gün ən kiçik rayonda belə infeksiya ilə mübarizə bölməsi, yaxud bu sahədə kiçik xəstəxanalar var. Pandemiyanın əsas dərsi odur ki, səhiyyə büdcə üçün yük deyil, istənilən dövlətin dayanıqlığı üçün mühüm amildir. Belarus bundan sonra da milli səhiyyə sistemini dəstəkləməyə davam edəcək. Belarusda hər bir vətəndaş bir gün hərtərəfli müayinədən keçə bilər”.

**İsmayıl**

# Mişelə məktubun nəticəsi olacaq?

## Məlahət İbrahimqızı: ”Qərbi Azərbaycan ictimaiyyəti Ermənistandan zor gücü ilə qovulmuş azərbaycanlıların qayıtmalarına Aİ-nin dəstək verəcəyinə ümid edir”

**”Öncə qetd etmək istərdim ki, Qərbi Azərbaycan İcması (QAİ) fəaliyyətə başladığı qısa müddət ərzində bir neçə beynəlxalq təşkilatlara müraciət edib. Göndərilmiş bu məktublarda isə indiki Ermənistan ərazisində onilliklər boyu, tarixən orada yaşamış azərbaycanlılara qarşı törədilmiş bəşəri cinayətə diqqət çəkilib”.**

*Bunu ”Şərq”ə açıqlamasında Qərbi Azərbaycandan olan millət vəkili Məlahət İbrahimqızı deyib. O vurğulayıb ki, məktubun mətni QAİ-nin Qərbi Azərbaycana Sülhməramlı Qayıdış Konsepsiyası əsasında hazırlanıb:* ”Konsepsiyada da göstərildiyi kimi, Ermənistandan qovulmuş hər bir azərbaycanlının dinc, sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıtmaq haqqı var. Bu mənada Avropa İttifaqına ünvanlanmış müraciətdə də Avropanın nüfuzlu təşkilatının bu məsələdə İcmaya, Ermənistandan məcburi olaraq deportasiya olunmuş azərbaycanlıların doğma yurdlarına qayıtmaları üçün dəstək verilməsi xahiş edilir. Bununla bərabər, məktubda Aİ-nin Ermənistandakı missiyasının ölkədən qovulmuş azərbaycanlıların hüquqlarının təmin edilməsi sahəsində



müvafiq etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinin zəruri olduğu bildirilir”.

**Xanım parlamentarinin sözlərinə görə, son vaxtlar Avropa İttifaqı Azərbaycan-Ermənistan arasındakı münasibətlərin normallaşması üçün çox ciddi səy göstərir:** ”Bütövlükdə həm ölkə ictimaiyyəti, həm də Qərbi Azərbaycan ictimaiyyəti Avropa İttifaqının bu rolunu yüksək dəyərləndirir. Davamlı sülhün bərqərar edilməsi üçün Ermənistandan zor gücü ilə qovulmuş azərbaycanlıların qayıtmalarına Aİ-nin dəstək verəcəyinə ümid edirlər. Məlumdur ki, erməni millətçiləri ən azı iki yüz ildir ki, Azərbaycan xalqına qarşı öz tarixi torpaqlarında - indiki Ermənistanda deportasiya və soyqırımı cinayətləri törədiblər. Bunun nəticəsidir ki, Ermənistan bu gün Avrasiyanın yeganə monoetnik ölkəsidir.

Avropa İttifaqı öz missiyasına uyğun olaraq Ermənistanı heç bir etnik ayrı-seçkilik etmədən insan hüquqlarına hörmət etməyə vadar etməlidir. Uzun illərdir ki, indiki Ermənistandan deportasiya olunmuş Qərbi azərbaycanlılar öz evlərini, doğmalarının uyuduğu qəbiristanlıqları, müqəddəs yerləri və mədəni abidələrini ziyarət edə bilmirlər. QAİ-nin göndərdiyi məktubda da qeyd etdiyim bu problem əks olunub və Avropa İttifaqının Ermənistandakı missiyası bu həssas məsələləri həll etməyə çağırılıb”.

*Qeyd edək ki, martın 1-də Qərbi Azərbaycan İcması tərəfindən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelə məktub göndərilib. Məktubda Ermənistandan qovulmuş azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz vətənlərinə qayıtmalarına Avropa İttifaqının dəstək verməsini və Avropa İttifaqının Ermənistandakı Missiyasının (EUMA) bu ölkədən qovulmuş azərbaycanlıların hüquqlarının təmin edilməsi sahəsində müvafiq etimad quruculuğu tədbirləri həyata keçirməsi xahiş edilib. İcma həmçinin Avropa İttifaqının Ermənistandakı missiyası ilə insan hüquqları, humanitar məsələlər, mülki şəxslərin qorunması kimi mövzular üzrə əməkdaşlığa hazır olduğunu bildirib.*

**Nihat Müzəffər**



# Xocalı görüşü tarixi hadisədir

## Erməni vətəndaşlarımız gec-tez Azərbaycan cəmiyyətinə reinteqrasiya olunacaq

**Azərbaycan hökumətinin rəsmiləri və Qarabağın erməni icmasının nümayəndələri arasında baş tutan görüş ictimaiyyətdə geniş müzakirələrə səbəb olub. Fikir bildirənlərin əksəriyyəti bu cür təmasların vacib olduğunu deyiblər. Məlumat üçün bildirək ki, görüşdə Laçın dəhlizi və ətraf mühitin monitorinqi ilə bağlı məsələlər müzakirə edilib.**

Görüş zamanı Azərbaycan Konstitusiyasına və qanunlarına uyğun olaraq Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycana reinteqrasiyasına dair müzakirələr də aparılıb. Digər məlumata görə, millət vəkili Ramin Məmmədov Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs təyin edilib.

Ekspertlərin fikrincə, Qarabağın erməni icması ilə son təmaslar, eləcə də bu məsələ üzrə məsul şəxsin təyin edilməsi bölgədə yaşayan ermənilərin reinteqrasiyasına doğru addımların başladığını göstərir.

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə açıqlamasında görüşün çox əhəmiyyətli olduğunu söyləyib. Parlament üzvü bildirib ki, əslində Azərbaycan hökuməti uzun müddətdir bu istiqamətdə addımlar atırdı:** "Rəsmi Bakının qətiyyətli və konseptual mövqeyi odur ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır. Ölkəmizdə yaşayan digər xalqların nümayəndələri kimi erməni vətəndaşlarımızın da hüquqları təmin olunur və olunacaq. Belə görüşləri ancaq alqışlamaq lazımdır. Mülki ermənilərlə qurulan təmasları "separatçılarla görüş" kimi təqdim etmək kökündən yanlışdır. Ermənistan tərəfinin məqsədyönlü şəkildə uydurduğu xəbərlərə istinad yolverilməzdir. Bu, xüsusi nümayəndəmiz və dövlət qurumları ilə erməni vətəndaşlarımız arasında növbəti təmaslardan biridir. Belə görüşlər Qarabağda gedən proseslərin tənzimlənməsinə müsbət və ciddi töhfəsini verəcək. Biz növbəti görüşlərin davamlı olacağını və uğurlar əldə edildiyini görəcəyik. Bu, dövlətimizin planlaşdırdığı, müəyyənləşdirdiyi prosesin tərkib hissəsidir".

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov da qeyd edib ki, Azərbaycan rəsmilərinin Qarabağ iqtisadi regionundakı erməni əhalinin nümayəndələri ilə Xocalıda keçirilən görüşünü tarixi görüş hesab etmək olar. Onun sözlərinə görə, Qarabağın erməni sakinləri bizim vətəndaşlarımızdır:** "Rəsmi təmsilçilərimizin onlarla görüşləri son nəticədə Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına təkan vermək baxımından olduqca əhəmiyyətli və müsbət addım kimi dəyərləndirilməlidir. Biz Qarabağdakı mülki ermənilərlə bağlı siyasi proseslərə nə vaxtsa start verməliydik. Hesab edirik ki, həmin vaxt, həmin məqam artıq yetişib. Ermənilərin indi iki seçimi var: onlar ya Azərbaycan vətəndaşlığını qəbul edərək bizim qanunlarımıza uyğun yaşamalıdırlar, ya da ki əks təqdirdə ərazilərimizi tərk etməlidirlər. Rəsmi Bakının vətəndaşlığı olmayan şəxslərin Azərbaycan ərazilərində qeyri-qanuni şəkildə yaşamağına izn vermək fikri yoxdur və bu da ən düzgün mövqedir. Biz separatçılığa "yox" deyən, Azərbaycan vətəndaşı kimi yaşamaq istəyən mülki ermənilərə sahib çıxmağa hazırıq.

Dövlət başçımız İlham Əliyev də dəfələrlə bəyan edib ki, Qarabağda yaşayan erməni sakinlər Azərbaycan Respublikasının vətəndaşlarıdır və onlar Azərbaycan vətəndaşlığını qəbul edərək digər vətəndaşlarımız kimi dövlətimizin imkanlarından yararlana bilərlər. Bunun üçün əlverişli şərait yetişməkdədir. Qarabağın erməni sakinləri ilə təmasların, dialoqun başlaması onların həyatında böyük dönüş yaradacaq. Separatçıların, revanşistlərin mülki ermənilərin taleyi ilə manipulyasiya etmələrinə və onlardan alət kimi, hədəf kimi istifadə etmələrinə son qoyacaq. Bu mənada belə görüşlərin keçirilməsi ilk növbədə Qarabağdakı mülki ermənilərin özləri üçün faydalıdır".

**Ə.Hüseynov başqa məqama da diqqət çəkib:** "Burada digər bir məqam da olduqca önəmlidir. Rəsmi Bakı Qarabağ erməniləri ilə münasibətlərin məcraya qoyulması üçün məhz parlament xəttinin seçilməsinə üstünlük verib. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üçün Milli Məclisin deputatı Ramin Məmmədovu məsul şəxs qismində sözügedən görüşün baş tutmasından ötrü Xocalıya ezam edib. Təəssüf ki, məsələlərə bayağı və səthi münasibət bildirməyə vərdiş etmiş bəzi sosial şəbəkə istifadəçiləri Ramin Məmmədovun təcrübəsiz olduğunu bildirirlər. Ancaq həmin diletantlar R.Məmmədovun kifayət qədər kompetent bir şəxs olmasından bixəbərdirlər. Beynəlxalq münasibətlər üzrə mütəxəssis olan, bir neçə xarici dil bilən və xaricdəki diasporlarımızla əlaqələrimizin genişləndirilməsi sahəsində böyük təcrübə qazanan R.Məmmədov bu danışıqları müvəffəqiyyətlə başa çatdırmaq üçün kifayət qədər geniş təcrübə və potensiala malikdir. Üstəgəl, Ağdərə şəhərində doğulan R.Məmmədov necə deyərlər, ərazini də, erməniləri də yaxşı tanıyır, ermənilərin xislətinə daha yaxından bələddir. Ona görə də Ramin Məmmədovun Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs qismində müəyyən edilməsi zənnimizcə, uğurlu seçimdir. İnanırıq ki, o, bu işin öhdəsindən layiqincə gələcək. Bölgədə sülhə və ərazilərimizdə əminamanlığa doğru körpü də olsa bir addım atılırsa, bunu yalnız təqdir etmək lazımdır. Bu qəbildən olan təmasların, sülh naminə danışıqların başlanmasının əleyhinə yox, lehinə mövqe seçməliyik".

İsmayıl Qocayev

# Brüssel artıq təşəbbüsü ələ alıb

## Moskvanın bugünkü problemləri ilə təşəbbüsü yenidən öz əlində cəmləməsi qeyri-mümkündür

**"Avropa İttifaqının missiyasını dəvət etmək Ermənistanın beynəlxalq münasibətlərin subyekti kimi suveren hüququdur. Lakin burada əsas məsələ, Ermənistanın bu addımının nəyə gətirib çıxacarağıdır". Bunu Rusiya Müasir Dövlət İnkişafı İnstitutunun direktoru, siyasi ekspert Dmitri Solonnikov bildirib. Onun sözlərinə görə, bu, Ermənistanı Rusiyadan qoparmaq siyasətinin davamıdır:**



"Heç kəsə sirr deyil ki, Paşinyan ABŞ-dən maliyyələşən QHT-lərin köməyi ilə hakimiyyətə gəlib. Bunlar Soros fondu və digər təşkilatlardır. Bu maliyyəçilər əvvəlcədən qarşılarına Ermənistanı beynəlxalq münasibətlərin Rusiyayönümlü spektorundan Amerikayönlü spektoruna çevirmək vəzifəsini qoyublar. Bu proses tədricən həyata keçirilir". Analitik qeyd edib ki, bir neçə müddətdir Paşinyanın əli ilə Ermənistanın üzünü Rusiyadan çeviriblər: "Ölkədə daim anti-Rusiya təbliğatı aparılır, anti-Rusiya informasiya kanalları yaradılır. İnsanların şüur altında Rusiyanın düşmən obrazı yaradılır. Avropa İttifaqının missiyasının dəvət olunması texnoloji addımdır. Avropa İttifaqı nə deməkdir? Bu hərbi planda NATO-ya söykənən siyasi təşkilatdır. Əgər Rusiya sülhməramlısı olmasa, Ermənistan üçün Cənubi Qafqazda gərginləşəcək münaqişə daha çətin olacaq. Bunun Ermənistan üçün gözlənilməz nəticələri olacaq. Həm Qarabağ, həm də Zəngəzur dəhlizi nöqteyi-nəzərindən Ermənistan üçün nəticəsi pis ola bilər. Lakin buna baxmayaraq, Ermənistan bu yolda irəliləyir". Solonnikov bu əhvalruhiyyənin Ermənistanda daha da güclənəcəyini qeyd edib: "Avropa İttifaqının vasitəçi kimi aparacağı bütün danışıqlar yeni qanlı prosesi təşkil etməkdir. Paşinyanın hakimiyyətə gətirənlərin ona verdiyi tapşırıq məhz bundan ibarətdir. Təəssüflər olsun ki, Ukrayna nümunəsi heç nə öyrətmir".

**Azərbaycan Demokrat Partiyasının sədr müavini Həsrət Rüstəmov "Şərq"ə açıqlamasında bildirib ki, Rusiyanın Cənubi Qafqazı əldən verməK istəməməsi və bu istəklərinə ənənəvi forpostu olan Ermənistanın dirəniş göstərməsi Moskvanı qıcıqlandırıb:** "Bu, başadüşüləndir. Ermənistanın indiki hakimiyyətinin Rusiyanın maraqlarına zidd siyasət yürütməsi isə yaranmaqda olan yeni dünya düzəninə uymaqla bağlıdır. Bu siyasət dünyanın yarıdan çoxunun düşməni olan Rusiyadan mümkün qədər uzaqlaşmaq istəklərindən doğur. İnsafən, bu siyasət təkcə Ermənistan üçün deyil, bütün Qafqaz ölkələri üçün faydalıdır. Qərbin, ABŞ-nin İrəvanı fəal müdafiə etməsi regionda ən zəif həlqə olmasına baxmayaraq, Ermənistana belə bir siyasət yürütmək şansı verir. Rusiyanın ittihamlarına gəlincə, hesab edirəm ki, bu açıqlamaların real təhlükəyə çevrilməsi həlelik qeyri-mümkündür. Ən azı ona görə ki, hiyləgərlikləri ilə ad çıxarmış ermənilərin Rusiyadan birdən-birə, ölçübiçmədən üz döndərməsini düşünmək sadəlövhlük olardı. Onlar və Qərb partnyorları şübhəsiz ki, Rusiyanın indiki durumunu nəzərə alıb bu cür addım gedişlər edirlər".

**H.Rüstəmov vurğulayıb ki, Rusiya özünün uzunmüddətli region ölkələrinə kölə kimi yaxınlaşmaq siyasəti ilə hamını bezdirib:** "Onsuz da keçmiş postsovet ölkələrinin hamısı Rusiyadan birdəfəlik can qurtarmaq üçün fürsət gözləyirlər. Azərbaycan-Ermənistan danışıqlarına isə bu məsələ düşünürəm ki, müsbət təsir edəcək. Brüssel artıq bu məsələdə təşəbbüsü ələ alıb və Moskvanın bugünkü problemləri ilə ona mane olması və ya təşəbbüsü yenidən öz əlində cəmləməsi qeyri-mümkündür".

İsmayıl Qocayev

# Ermənistan Rusiyanın vasitəçiliyindən imtina edir

**"Ermənistan Rusiyanın vasitəçiliyi ilə danışıqlardan imtina edir". Bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Bakıda mətbuat konfransında buna eyham vurdu:**



"Ermənistan Rusiyanın vasitəçiliyindən ona görə imtina edir ki, birbaşa Qərbdən verilən təlimatı yerinə yetirsin. Həmçinin Moskvanın Ermənistanda geosiyasi mövqeyinin güclənməsini neytrallaşdırsın. Əgər Ermənistan Rusiyanın vasitəçiliyindən imtina edirsə, Moskva Azərbaycana tam dəstək verməlidir. Amma Sergey Lavrov Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsinin quraşdırılmasının əleyhinə çıxır. Bu səfərdə aydın oldu ki, Ermənistan sülh müqaviləsinin Rusiyanın vasitəçiliyi ilə bağlanmasında maraqlı deyil".

Analitikə görə, Lavrovun səfərində Qarabağda erməni icması ilə Azərbaycanın təmasları müzakirə edilib: "Eyni zamanda Zəngəzur dəhlizinin açılması müzakirə mövzusu olub. Moskva Azərbaycanın şərtləri ilə razılaşmaq məcburiyyətindədir. Rusiyanın Ermənistanda siyasi mövqeyi zəifləyir. Avropa İttifaqı öz siyasi mövqelərini gücləndirir".

İsmayıl

# "Səs TV" və "Müsavat TV"-yə haker hücumları...

## Hesabların ələ keçirilməsi aydın bir təəssürat yaradır ki, budəfəki hücumlar sadə və texniki müstəvidə baş verməyib

**Kifayət qədər izləyici kütləsinə malik olan "Müsavat TV" və "Səs TV" kanalları haker hücumuna məruz qalıblar. Mətbuat Şurasının yaydığı bəyanatda qeyd olunub ki, bu media orqanlarının emailləri ələ keçirilib, bazaları silinib. Mətbuat Şurası ölkəmizin digər aparıcı kütləvi informasiya vasitələrinin də oxşar xoşagəlməz aqibətlə üzləşəcəyi ehtimalının yaranmasından narahatdır. Hadisənin, demək olar, eyni vaxtda baş verməsi belə bir təhlükənin mövcudluğundan xəbər verir.**

Baş vermiş hadisə kiber hücumlara qarşı mübarizəyə ciddi yanaşmağı aktuallaşdırmaqdadır. Hadisə eyni zamanda kiber təhlükəsizliyin təminatına yönələn məqsədyönlü, ardıcıl və təxirəsalınmaz tədbirlərin görülməsi, hazırda həyata keçirilən işlərin gücləndirilməsi zərurətini doğurmaqdadır. Yalnız adını çəkdiyimiz media orqanlarının deyil, ümumilikdə, milli resurslarımızın bazalarının qorunması, həm də ölkəmizin informasiya təhlükəsizliyinin mühüm komponentidir. Hadisə onu da göstərir ki, media orqanlarımızın öz bazalarını milli resurslarda yerləşdirmələrinə ehtiyac var. Ötən illərin də təcrübəsi bu baxımdan xarici ölkələrdəki xidmətlərdən istifadənin kifayət qədər effektiv olmadığını, maksimum təhlükəsizliyə zəmanət verməyini söyləməyə əsas verir". MŞ ölkəmizin aparıcı media qurumlarını bu nəzərə almağa, mövcud istiqamətdə fərdi tədbirlər görməyə çağırıb. Həmçinin aidiyyəti dövlət orqanlarını baş vermiş hadisəyə həssas yanaşmağa, onun araşdırılması, tez bir zamanda hüquqi qiymətin verilməsi, günahkarların tapılaraq məsuliyyətə cəlb edilməsi ilə bağlı operativ tədbirlər həyata keçirməyə səsləyib.



"İstənilən halda məsələ çox ciddi araşdırılmalıdır. Nəzərə alaq ki, sözügedən kanallar gündəmin informasiya yükünü çəkən media qurumlarıdır"

**"Yeni Müsavat" Media Qrupun rəhbəri Rauf Arifoğlu bildirib ki, ötən axşam 21:41 radələrində "TV Musavat"ın yutub platformasına hücum olunub:** "Öncə kanalın bağlı olduğu elektron poçt ünvanı ələ keçirilib. Daha sonra həmin ünvana bağlı olan yutub kanalı ələ keçirilərək, adı dəyişdirilib, videolarımız silinib. Hakerlər kanalımıza "Tesla" adı qoyublar. 286 min abunəsi olan platformadan bu gecə saxta kriptovalyuta satışı həyata keçirilib. Kanala 7 oyun yerləşdirilib. Prezident Administrasiyası, Dövlət Təhlükəsizlik Xidməti (DTX), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məlumatlandırılıb. Gecə saatlarına qədər DTX-nın aidiyyəti idarəsi bununla bağlı müvafiq işlər görüb. "YouTube" mərkəzi ofisinə də məlumat verilib. Məlum olub ki, bu, sadə dələduzluq hadisəsi deyil, ölkəmizin kibertəhlükəsizliyinə təhdiddir. Belə ki, ələ keçirilmiş "TV Musavat" kanalından abunəçilərə viruslu linklər göndərilir. Bu da o deməkdir ki, genişmiqyaslı, dövlət səviyyəsində kibertəhlükəsizlik proseduru işə salınmalıdır. Ən qısa zamanda "TV Musavat" kanalının geri qaytarılması üçün bütün müvafiq tədbirlər görülür".

**Baş vermiş hadisə ilə bağlı Medianın İnkişafı Agentliyi də bəyanat yayıb. Agentlik vurğulayıb ki, yutub kanallarına haker hücumu ölkəmizin informasiya təhlükəsizliyinə təhdiddir:** "Ölkəmizin informasiya təhlükəsizliyinə yönəlmiş bu hücum bir daha sübut edir ki, milli informasiya məkanımız daim ictimai fikri çaşdırmaq istəyən qüvvələrin nəinki dezinformasiya və yanlış xəbərlər yayılması, habelə infrastruktura kənar müdaxilə etməklə informasiyanın mənbədən silinməsi və dəyişdirilməsi üsulundan istifadə etməklə hədəfinə çevrilir. Medianın İnkişafı Agentliyi "Səs" və "Yeni Müsavat" media qruplarının yutub kanallarına haker hücumunu ölkəmizin informasiya təhlükəsizliyinə təhdid hesab edir. Bu kimi halların baş verməsinin qarşısının alınması məqsədilə media qurumlarını öz resurslarının mühafizəsinə daha həssas yanaşmağa, eyni zamanda həm media qurumlarını, həm də aidiyyəti dövlət orqanlarını qarşılıqlı əməkdaşlıq çərçivəsində tədbirlər görməyə çağırır".

**Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli "Şərq"ə açıqlamasında deyib ki, haker hücumları, onlayn sferada texniki problemlərin yaradılması dövrümüzdə sıx rast gəlinən hallardır. Ekspert bildirib ki, bununla bağlı onlayn media qurumları fəaliyyətə başlayarkən texniki baxımdan zəruri addımlar atmalıdır:** "Amma "Səs TV" və "Müsavat TV"-yə edilən haker hücumları, hesabların ələ keçirilməsi aydın bir təəssürat yaradır ki, budəfəki hücumlar sadə və texniki müstəvidə baş verməyib. İstər İkinci Qarabağ savaşı zamanı, istərsə də sonrakı dövrlərdə media qurumlarımıza intensiv hücumların baş verdiyinin, müxtəlif platformalardakı hesabların dağıdılmasının şahidi olmuşuq. Əksəriyyəti də xaricdən idarə olunan hücumlar olub. O baxımdan sonuncu haker hücumları hansısa media subyektinin özünümüdafiə çərçivəsindən çıxır və geniş anlam ifadə edir. Təbii ki, onlayn sferada təhlükəsizliyə məsul olan qurumlar da məsələyə münasibət bildirməlidir. Bilmiyirik ki, bu cür hücumlar zamanı hansı vasitələrdən istifadə etmək lazımdır. Aydınlaşmalıdır ki, niyə hakerlər "uğurlu" olurlar? Mətbuat Şurası ilk bəyanatını yayıb. Əslində bu, məlumatlandırıcı olmaqla yanaşı, həm də xəbərdaredici bəyanat idi. Ola bilər ki, kanalları ələ keçirən mərkəzlər həmin KİV-lərin adından uydurma açıqlama, informasiya yaya bilərlər. O səbəbdən xəbərdaredici açıqlamalar mühümdür. İstənilən halda məsələ çox ciddi araşdırılmalıdır. Nəzərə alaq ki, sözügedən kanallar gündəmin informasiya yükünü çəkən media qurumlarıdır. Həmin kanalların yayım prosesinin pozulması ölkənin informasiya məkanında müəyyən problemlər yarada bilər. Ona görə də müvafiq qurumlar məsələni araşdırmalıdırlar. Mütəxəssislərin və ixtisaslaşmış qurumların rəyindən sonra biz bu məsələnin üzərində daha geniş dayana bilərik".

İsmayıl Qocayev

# Səfirliyə terror aktı Azərbaycanın qırmızı xəttidir

## Rəsmi Bakı bildirir ki, bu məsələ həll olunmadıqca, İranla əməkdaşlığın perspektivi görünmür




**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının COVİD-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan İran xarici işlər nazirinin iqtisadi diplomatiya məsələləri üzrə müavini Mehdi Səfəri ilə görüşüb.**

XİN-dən verilən xəbərə görə, görüş zamanı, Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə Görüşünün gündəliyi üzrə işlər, eləcə də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə xain terror hücumundan irəli gələn məsələlər müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan Respublikasının İrandakı səfirliyinə edilən xain hücumu törədənin, təşkilatçı və sifarişçilərinin müəyyən edilməsi, onların müvafiq şəkildə cəzalandırılmasının vacib olduğunu bildirib.

Nazir terror hücumunun təfərrüatlarının və video çəkilişlərin tərəfimizdən incələndiyini, bu istiqamətdə istintaqın davam etdiyini, Azərbaycan tərəfində terrorla bağlı bir sıra mövcud sualların İran tərəfindən cavablandırılmasının zəruri olduğunu vurğulayıb.

**Məsələni "Şərq"ə dəyərləndirən tanınmış jurnalist Xəqani Səfəroğlu söyləyib ki, Azərbaycan tərəfi İrana dəfələrlə terraktda "əli" olan qüvvələrin tapılaraq cəzalandırılması üçün müraciət edib:** "Ceyhun Bayramov İran xarici işlər nazirinin müavini ilə görüşündə də Azərbaycan tərəfinin mövqeyini onlara yenidən çatdırdı. Buradakı əsas mesaj rəsmi Bakının Tehrandan lazımi addımların atılmasını gözləməsidir. Yəni Azərbaycan iki dövlət arasındakı münasibətlərin pisləşməsini istəyən qüvvələrin aydınlaşdırılmasında maraqlıdır. Digər tərəfdən, səfirliyimizə olan hücum cənub qonşumuzun diplomatik imicinə ciddi zərər vurdu. Hətta böyük dövlətlər tərəfindən onların ərazisində yerləşən diplomatik korpusu qorumayaraq beynəlxalq konvensiyanın tələblərini pozması barəsində də ittihamlar səsləndi".

Jurnalist qeyd edib ki, Azərbaycan səfirliyinə olan hücumun araşdırılmasını iki dövlət arasındakı əlaqələr üçün qırmızı xətt hesab edir: "Yəni rəsmi Bakı bildirir ki, bu məsələ həll olunmadıqca, İranla əməkdaşlığın perspektivi görünmür. Hadisənin bu qədər mürəkkəbləşməsi isə cənub qonşumuzdan qaynaqlanır. Onların regionla bağlı yürütdüyü siyasət Azərbaycanın maraqlarına ziddir və bu, zaman-zaman özünü müxtəlif indikatorlarla göstərir. İran-Ermənistan münasibətlərinin son vaxtlarda aktivliyi, onların lüzumsuz hədə-qorxu cəhdləri və Zəngəzur dəhlizi ilə bağlı açıqlamaları cənub qonşumuzun 44 günlük savaşdan sonra Azərbaycan tərəfindən yaradılan yeni reallığı qəbul etmək istəmədiyini göstərir. Lakin bu, əbəs bir müqavimətdir.

Çünki Vətən müharibəsindən sonra Azərbaycan regiondakı geopolitik proseslərin avanqard ölkəsinə çevrilib. Yəni artıq Qafqazda rəsmi Bakısız heç bir məsələ həll edilə bilməz. Rəsmi Tehran isə bunu qəbul etmək istəmir. Onlar hesab edirlər ki, Qafqazda Sovet dövründən qalan prioritetlər hələ də var. Ancaq tarixin təkərini geri çevirmək olmaz".

X.Səfəroğlunun sözlərinə görə, Azərbaycan səfirliyimizə hücumla bağlı İrandan tələbləri haqlı və beynəlxalq hüquq çərçivəsindədir: "Cənub qonşumuzun özünü eşitməzliyə vurması və media üzərindən Azərbaycana təzyiq göstərməsi effektsizdir. Bu, daha çox Tehranın əleyhinə işləyir. Çünki Azərbaycan səfirliyinə olunan hücumun videogörüntüləri göstərir ki, bu, bilərəkdən törədilən bir hadisədir və onun qarşısının alınmamasının məsuliyyətini İran daşıyır.

Amma görünən odur ki, rejimin hələ də verilən suallara cavab vermək iqtidarı yoxdur. Ümumiyyətlə, onların gözləmə mövqeyi prosesi yoxuşa çəkir".

**Nihat Müzəffər**



# Birbaşa təmas daha effektlidir

## "Xocalı görüşü ermənilərin bizə inamını artıracaq"

**"Azərbaycanın Qarabağdakı ermənilərlə təmas üçün nümayəndə təyin etməsi müsbət haldır. Görüşdə iştirak edən şəxslər separatçılar deyil, məhz erməni icmasına mənsub insanlardır".**

**Bunu "Şərq"ə açıqlamasında Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, siyasi şərhçi Samir Hümbətov deyib.**

Analitikin fikrincə, əgər erməni sakinləri Azərbaycan vətəndaşı hesab ediriksə, dəməli, birbaşa təmas qurulmalıdır:

"Belə bir görüşün keçirilməsi gözlənilirdi. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Qarabağdakı erməni əsilli şəxslər Azərbaycan vətəndaşlarıdır. Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyev qəti şəkildə bu fikrini diqqətə çatdırdı. Onların ən qısa zamanda Azərbaycan cəmiyyətinə inteqrasiyası və mübahisəli məsələlərin ən qısa zamanda həlli Bakının prioritetidir. Azərbaycan qanunları çərçivəsində yaşaya bilərlər.

Prosesi üçüncü, dördüncü dövlətlərin əli ilə etmək ayrıdır, birbaşa təmas isə fərqlidir. Bu, hesablanmış, məqsədyönlü, ağıllı siyasətdir. Bugünədək Fransanın, Rusiyanın, Avropa İttifaqının və s. vasitəçiliyi ilə görüş təklif edilirdisə, artıq özümüz gerçəkləşdiririk. Xocalıda görüşün reallaşması gələcəkdə onların bizə inamını artıracaq. Prosesin asan başa gələcəyini gözləmək olmaz, çünki separatçı qüvvələr gedişatı dəyişməyə çalışırlar. Azərbaycan nümayəndə heyəti erməni icmasının nümayəndələri ilə mütəmadi görüşüb inteqrasiya prosesini sürətləndirməlidir".

*Qeyd edək ki, Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlılarının Xocalıdakı müvəqqəti qərargahında Milli Məclisin deputatı Ramin Məmmədov erməni sakinlərin təmsilçiləri ilə görüşüb. Toplantıda Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət təbii sərvətlərin qanunsuz istismarını araşdıran monitorinq qrupunun rəhbəri Məsim Məmmədov da iştirak edib.*

**Aygün Tahir**

# Hacı Şahin Həsənli birləşdirici dəyərmiş

## Onun ölüm xəbərindən sarsılmayan, təəssüflənməyən olmadı

**Belə bir izdihamı, insan selini 2000-ci ilin avqustunda görmüşdüm. Azərbaycan Respublikasının Prezidenti, milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəy son mənzilə yola salınanda. Ümummilli Lider Heydər Əliyevin ölüm günü də belə oldu. İnsan seli, göz yaşları. İnsanların heç bir gözlənti, məcburiyyət olmadan, sadəcə vəfa borcunu yerinə yetirmək duyğusu və sevgisini izhar məqsədilə bir insanı son mənzilə yolçu etməsi nadir yaşanan hadisədir.**

Dünən növbəti dəfə belə müdhiş səhnəyə şahidlik etdik. Bəlkə çoxunun heç ağlına da gəlməzdi ki, din xadimi, ilahiyyatçı kimi təqdim edilən Hacı Şahin Həsənli belə nəhəng sevgi qazanıb. Dünən bunu gördük, əmin olduq. Və yenə də təəssüf ki, biz həqiqi dəyərli insanlarımızın kimliyini onları itirdikdən sonra başa düşürük. Hacı Şahin Həsənli birləşdirici dəyərmiş. Onun ölüm xəbərindən sarsılmayan, təəssüflənməyən olmadı, məncə. İctimai xadimlər, ziyalılar, sadə vətəndaşlar, onunla fikir ayrılıqları olanlar və hətta inancsız insanlar da Hacı Şahin haqqında kədərli paylaşımlar etdilər, Allahdan rəhmət, ruhunun şad olmasını dilədilər.

**Aqşin Yenisey:**

Beş-altı ilin söhbətidir. Çox axmaq və gözlənilməz bir problemlə üzləşmişdim. Hər kəsə də deyiləsi məsələ deyildi. Həm maddi, həm mənəvi təklikdə vurnuxurdum. Yaxın dostlardan biri ilə oturub dərdləşəndə dedi, bilirsən, sənə kim kömək edə bilər? Kim? Hacı Şahin! Nə danışırsan, məni hamı din tənqidçisi, ateist kimi tanıyır, kim inancını, imanını təngid edən adama kömək edər, həm də heç vaxt üzüzə gəlmədiyi, salam verib salam almadığı adama? Götürüb yanımda zəng etdi. Hacı Şahin adımı telefonda eşidən kimi heç bir səbəb soruşmadan cavab verdi ki, hardasınız? On beş dəqiqədən sonra tanımadığımız bir adam öz avtomobili ilə Hacı Şahinin təmənnasız köməyini gətirib böyük ehtiramla bizə təqdim etdi və "yenə nəsə lazım olsa xəbər edin" deyib çıxıb getdi. O vaxt Hacı Şahini, ən azı, çevrəsinin qınağı ilə üz-üzə qoymamaq üçün bu əhvalatı yazmadım, heç kimə də danışmadım. Düşünürdüm ki, nə vaxtsa kitablarımda Tolstoyun "Sergi atası" kimi müsbət bir din xadimi obrazı yaratmaq istəsəm, bu adam Hacı Şahin olacaq. Mən Hacı Şahinin hansı ürək sahibi olduğunu çoxdan bilirdim. Təəssüf ki, bu cür ürəklər bu coğrafiyada nadirən döyünürlər və çox yaşamırlar. Səni unutmayacağam, əziz və gizli dostum!

**Şərif Ağ:** Yaxşı insanın düşərgəsi olmur. Nə siyasi, nə milli, nə də sinfi, nə də dini. Hacı Şahin bunu bir daha sübut etdi. Ruhu şad olsun. Mən də onun mərhəmətli qəlbi olduğuna əmin idim. Tanımadan... Səsindən... Danışığından... Doyub-toxtamış söhbətlərindən... Aqressivlikdən uzaqlığından...

**Elşad Barat:** Xalq hacını son mənzilə yola salır. Bu adamlar sənin dəyərinin göstəricisidir. Ruhun şad olsun, işıqlı adam!

**Xəqani Səfəroğlu:** Hacı Şahin cəmiyyəti etiqad platformasında birləşdirməyi bacaran din xadimi idi. Tarixçilər dövlətin və cəmiyyətin hərəkətverici qüvvələrini və düşmənlərini tanıyan olur. Hacı Şahinin də bir ixtisası tarixçi idi. Allah rəhmət eləsin!

**Aqşin Kərimov:** Hacı Şahin Həsənli vəfat edib. Qalmaqaldan uzaq, tənqidə dözümlü, adekvat, mədəni, müzakirəyə açıq, dini inancın milli əsaslarla formalaşmasında xidmətləri olmuş bir şəxsi itirdik. Ruhu şad olsun.

**Əlişir Əhəd:** Milyonların sevgisini qazanmışdı. Öz əxlaqı, savadı və biliyi ilə nümunə idi çoxlarına Hacı Şahin. Həqiqətən də bu belə imiş - Yaxşı adamlar tez gedir. Uca Allah yaxınlarına, sevdiklərinə səbr versin.

**Azər Rəşidoğlu:** Hacı Şahin radikal və təkfirçi cərəyanlara qarşı az qala təkbaşına savaşırdı. Onu radikal təkfirçilər sevmirdi. Hacı Şahin İranın Azərbaycanda şiələri oyuna çəkməyinin də qarşısını az qala təkbaşına alırdı. Onu İran da sevmirdi. Onun qəfil ölümü çoxsaylı suallar doğurur. Bunu da araşdırmaq lazım gələcək. Hacı Şahinin ölümü Azərbaycan üçün böyük itki oldu. On minlərlə tərəfdarı olan, onları inandıra bilən bir ictimai xadimi itirdik. Allah rəhmət eləsin! Ailəsinin və sevənlərinin başı sağ olsun!

**Qurban Yaquboglu:** 2017-ci ildə Mövludun faciəsindən sonra sarsıntı içərisində olan kollektiv redaksiyaya bir din adamının dəvət olunmasına qərar verdi. Hacı Şahinin üzərində dayandıq. Dəvəti qəbul elədi, əlində Quran gəldi. Stresdən doğan ən müxtəlif "uşaq suallarını" da səbrlə cavablandırdı, sonra Yasin oxudu. Yasini aramla oxuyur, dayanır, izah verir, davam edirdi. Quran bitdi, hamı sakitləşdi. Hacı Şahin ictimai fəaliyyətində məzhəbi məqamlardan və tarixi konfliktdən uzaq dayanmağa çalışan səbrli din adamı və din xadimiydi. Allah rəhmət eləsin!

**Elxan Şükürlü:** O, Allahın kəlamlarını, o cümlədən həyatı və ölümü insanlarımıza ən gözəl şəkildə anladan, Allahı sevməyin Vətəni sevməkdən başladığını öyrədən və üçrəngli Azərbaycan bayrağını da şəhidlər sərdarı Həzrəti Hüseynin (s.) bayrağıyla birgə başı üzərinə qaldırmağı bacaran tək-tük istedadlı din xadimlərimizdən, yolunu azaraq cəhalət girdabında çırpınan bir toplumu aydınlığa çıxarmağa can atan həqiqi ziyalılarımızdan - İşıq İnsanlarımızdan idi! Bu gün o İşıqlardan daha biri söndü! İtirənsə təkcə onu sevən, qardaş bilən minlərlə ardıcılı yox, bütün Azərbaycanımızdır! Başın sağ olsun, Vətən!

**Bətura Nəbiyeva:** Təpədən dırnağacan dindar idi, mömin idi, dinin əla bilicisi, İlahiyyatçı kimi əvəzsiz idi. Ən vacibi Adam kimi Adam idi. Heyf ki, missiyası tez bitdi. Bütün yaxşılar kimi...




**Rəsul Mirhəşimli:** Nəcib Fazil Kısakürək yazırdı ki: Ölüm gözəl şeydir, budur pərdə ardından xəbər, Ölüm gözəl olmasaydı, ölərmiydi Peyğəmbər?! Hacı Şahin cəmiyyətə onu Sevdiyinə yola salanlara gələnləri ilə bu mesajı verdi: "Bu qədər sevənlərin olduqdan sonra ölüm gözəldir". Hacı Şahin namazlarında "Bizi doğru yola yönəlt" ayəsini təkcə tilavət etmədi, bu ayəni həyatında yaşatdı, minlərlə gəncin doğru yola gəlməsinə vəsilə oldu. O insanın dedikləri eşidənlərin qəlbini titrədir ki, bu sözləri söyləyən onu həyatı ilə yaşaya bilsin. Hacı Şahin danışdıqlarını həyatında yaşadan din xadimi idi. "Sarvan, qatarımızı səri-kuyə çək" nidası ilə bu gün Hacı Şahinin ruhunu Sevdiyinə çəkdi. Allah ruhunu şad eləsin! Allah rəhmət eləsin!

**Əntiqə Kərimzadə:** Biz tərəflərdə yaxşı insana "imam övladı" deyirlər. Hacı Şahin də İmam övladı idi. 48 il yaşadı, 48000 insan sevgisini qazandı. Qonaq olduğu bu fani dünyadan heç kəsə möhtac olmadan köçdü. Bir anın içində, səssizsəmirsiz... Nə gözəl ölümdü bu... Nə səssiz gedişdi bu... Nə acı qismətdi bu. Allah rəhmət etsin!

**Orxan Kərimov:** Atam da belə ölmüşdü. Axşamçağı idi, çağırdı məni yanına, sağollaşdı, evi, ailəni tapşırdı mənə, uşaq idim, 12 yaşım vardı, ciddiyə ala bilmədim, gedib yatdım, 2 saat sonra oyandım ki, ürəyi tutub, keçinib. O da həmin gün, ürəyim yanır deyib həkimə getmişdi... Məhz bu səbəbdən olsa gərək, neçə illər keçdi, heç vaxt onun ölümüylə barışa bilmədim, bilmirəm... Çünki öləcəyini hiss edən adamlar dünyadan köçəndən sonra, dərin bir boşluq qoyurlar qəlbimizdə... Bu gün də, Hacı... Eyni cür, eyni diaqnozdan və öləcəyini bilərək getdi aramızdan... Dünən axşam votsapda paylaşdığı misralar da elə bunun işarəsi imiş... Bilmirəm, yəqin ürək elə orqandır ki, öldürəndə də xəbər edir. Və yəqin, atamın ölümünü qəbul edə bilmədiyim kimi, bu acını da bir ömür qəbul edə bilməyəcəm. Çünki son bir ildir, Hacının sözləri, hikməti, işığı mənə yön verib, yol göstərirdi. Ən böyük arzum idi, Bakıya gedib, onunla görüşmək, onu bu qədər gec anladığım üçün halallıq almaq... Neynək, nəsib olmadı... Hacını bizdən "ürəyi" aldı, amma bizim ürəklərimiz bir ömür onun istisinə, onun üçün döyünəcək... Məkanınız cənnət olsun, Nurlu Adam..!

**Rauf Agamirzəyev:** Allah rəhmət eləsin Hacı Şahinə! Dinindən,millətindən asılı olmayaraq hər kəs bu itkiyə üzülür. Eldən gedən böyük bir azərbaycanlımızı itirdik. Yaxınlarına səbr.

**Asəf Quliyev:** Bütövlükdə Azərbaycan itirdi. Xatirəsinə sayğılar!

**Nərgiz Salmanova Liftiyeva:** İslamı dərk edəndən Cümələrimiz, Ramazanlarımız, Məhərrəmliyimiz Hacının xütbələri ilə keçib... Sanki ailəmizdən biri idi. Məşədi Dadaş məscidinə bu böyük din aliminə vida üçün gedəcəyimiz ağlımıza gəlməzdi. İlk dəfə Hacı Şahinsiz Ramazan gələcək, yoxluğunu hələ çox hiss edəcəyik. Sevənləri göz yaşları ilə vidalaşdı. Minlərlə insan yollarda idi... Amma haqsızlıq edənlər də çox oldu, xırda bir şey tapıb ilişməyə çalışırdılar, qəlbini qırırdılar. Məcbur qalıb cavab verməli olurdu... Haqqını halal elə, Hacı! Allah sevdiklərini tez aparır yanına, o sevdiyin, təbliğ etdiyin Əhli-Beytə qonaq ol, İnşallah.

**Yusif Rzayev:** Heç vaxt qarşılaşmadıq, heç vaxt ünsiyyətdə olmadıq, amma ölüm xəbərini eşidəndən elə bilirəm, neçə illərin simsarını, yaxınını, doğmasını itirmişəm. Ruhu şa olsun!..

**İçərişəhər "Cümə" məscidinin axundu Hacı Surxay Məmmədli:** Səhər saatlarında aldığım bu xəbərlə dərindən sarsıldım. Göz yaşlarımı saxlaya bilmədim. Hacı Şahin mənim qardaşım, dostum, eyni zamanda iş yoldaşım idi. Onun cavan yaşda ölümü sarsıdıcı oldu. Ölüm haqdır, hər birimiz bir gün Allahdan gəldiyimiz kimi, ona dönəcəyik. Hacı Şahin Allaha qovuşdu. Bu dünya müvəqqətidir, bu dünya murdar yerdir, Hacı Şahinin o dünyası gözəl olsun. Onun din yolunda xidmətləri böyükdür"

**Tarixçi Zaur Əliyev:** Hacı Şahinə gecikmiş məktub.

Əziz Hacı, mən səni çox istəyirəm, amma deyə bilmirdim... Narazı idim səndən, bəzi məsələrdə etiraz edirdim sənə, qınayırdım. Neçə dəfə bunu açıq yazmışdım. Amma bu o demək deyil idi ki, sənə sevgim yoxdur. İnsan sevdiyi insandan inciyir, amma sevgi azalmır ki, bu zaman... Çox söhbətlər edəcəkdik, tarixdən dinə gələn yolu müzakirə etməli idik...Səni ən savadlı insan bildiyim üçün uman yerim sən idin... Mən ən yaxın dostlarımdan birindən xahiş etmişdim, şəkər məni çox incidir, ola bilsin yaxın günlərdə öləcəm, onda Hacı Şahini dəvət edərsən, o məclisi aparar. Çünki Hacı Allahın sevdiyi insandır, Allahın sevdiyi insanın məni dəfn etməsi günahlarımı bağışlaya bilərdi. Hacı, mən indi səni yola salmağa gəlmişəm. Amma belə olmalı deyil idi... Olmalı deyildi. Məni sən yola salmalı idin. Amma....

Səni itirdik, çox acı çəkirik. Hazırda yüzlərlə insan sənin üçün göz yaşı tökür. Yüzlərlə insanın sevgisini qazanan Hacı....Bizi belə qoyub hara gedirsən... Göz yaşı, Sevgi, Sən bizə bunları qoyub gedirsən. Hər zaman səni yada salanda göz yaşlarımız töküləcək, amma bu Sevgi göz yaşlarıdır... Hacı, ruhun şad olsun, yerin cənnətdir. Bizim şəhidləri dəfn edəndə yaşadığın hissləri görməmək mümkün deyildi... İndi sən şəhidlərimizin yanındasan. Cənnətdə bizdən salam de şəhidlərə...Onları orda da qoru... Hacı, səni çox sevirəm. Sən bu dünyada indi yoxsan ...amma sənə olan sevgim əbədiyyətə qədər qalacaq... Allah sənə rəhmət eləsin Hacı!

*Həsənli Şahin Hüseyn oğlu 1974-cü ildə Bakıda anadan olub. Azərbaycan Dövlət Texniki Universitetinin məzunu olan Hacı Şahin, ikinci təhsilini tarix üzrə Bakı Dövlət Universitetində alıb. O, eyni zamanda fars və rus dillərini də bilirdi. Təkcə dindarlar deyil, cəmiyyətin digər kəsimləri arasında da böyük nüfuza sahib olan Hacı Şahin, həm də ictimai xadim kimi fəaliyyət göstərirdi. O, sağlığında kütləvi tədbirlərdə, şəhidlərin dəfn mərasimində yaxından iştirak etməklə şəhid ailələrinə mənəvi dəstəyi ilə diqqət çəkirdi. Eyni zamanda Vətən müharibəsi dövründə hərbçilərin ruh yüksəkliyinin artırılmasında da rolu olub. Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, Məşədi Dadaş Məscidinin imamı idi. Allah rəhmət eləsin. Məkanı cənnət olar İnşəllah!*

**Məlahət Rzayeva**

*"Şərq" qəzetinin kollektivi ilahiyyatçı, islam xidmətçisi Hacı Şahin Həsənlinin ölümündən kədərləndiyini bildirir, mərhumun ailə üzvlərinə və sevənlərinə səbr diləyir.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi



# Rəqəmsallaşma təhlükələrin önlənməsinə kömək edir

## Zəlzələ zamanı insanların xilasında lazer cihazlarından uğurla istifadə edildi

**Ümumdünya Mülki Müdafiə Günü münasibətiylə ”Risklərin qiymətləndirilməsində informasiya texnologiyalarının rolu” mövzusunda maarifləndirici tədbirlər keçirilib. Belə tədbirlərdən biri ”AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində təşkil olunub.**

Tədbirdə ”AzerGold” QSC-nin İdarə Heyəti sədrinin müavini, QSC-nin Fövqəladə hallar komissiyasının sədri Oqtay Məmmədov, Daşkəsən Rayon İcra Hakimiyyətinin İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Elmar Əliyev, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri Vasif Hüseynov və Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzinin əməkdaşları iştirak edib. Tədbirdə çıxış edən ”AzerGold” QSC-nin İdarə Heyəti sədrinin müavini O.Məmmədov əhalinin və ərazinin, o cümlədən torpaq, su və hava məkanının, istehsal və sosial təyinatlı obyektlərin, habelə ətraf mühitin təhlükəsizliyinin təmin edilməsi üçün mülki müdafiə sahəsində müvafiq tədbirlərin görülməsi, məlumatlılığın artırılması, bu xüsusda idarə və müəssisələrdə vaxtaşırı tədbir və təlimlərin keçirilməsinin vacib və məqsədəuyğun olduğunu qeyd edib. Müvafiq dövlət strukturlarının dəstəyi ilə fövqəladə hallardan mühafizə sahəsində hazırlığın təmin edilməsi istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində Səhmdar Cəmiyyətin fəaliyyətinin təşkil edildiyi bütün obyekt və sahələrdə təhlükəsiz iş şəraitinin təmin olunduğu, işçilərinin sağlamlığının, ətraf mühitin mühafizəsinin uğurla təşkil edildiyi diqqətə çatdırılıb. Görülmüş işlərin müsbət nəticəsi olaraq ”AzerGold” QSC-nin fəaliyyətə başladığı dövrdən bugünədək xəsarətsiz ötüşən iş saatlarının miqdarının 3.6 milyon saatı, onun törəmə şirkəti ”Daşkəsən Dəmir Filiz” MMC-də isə bu göstəricinin 1 milyon saatı üstələdiyi bildirilib. Əlavə edilib ki, QSC mədənçilik sənayesində rəqəmsal həllər və innovasiya ekosistemlərinin inkişaf etdirilməsi ilə istehsalat prosesində səmərəliliyin artırılması, əməyin təhlükəsizliyi, ətraf mühitin mühafizəsi və sağlamlıq tədbirlərinin gücləndirilməsində daim maraqlıdır. Bu məqsədlə QSC-nin Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi, Türkiyənin Metal Sənayeçiləri Birliyini təmsil edən MEXT Texnoloji Mərkəzi ilə fəal əməkdaşlıq münasibətləri mövcuddur. Daha sonra ÇİRES-də işçi heyətinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə istifadə edilən mülki müdafiə, yanğından mühafizə və digər texniki təhlükəsizlik vasitələri nümayiş etdirilib, yanğın və qəza-xilasetmə işlərinin aparılması sahəsində texniki təhlükəsizlik qaydalarına dair təlim keçirilib. Tədbirdə iştirak edən müvafiq qurum və təşkilatların nümayəndələri QSC tərəfindən mülki müdafiə işinin müasir tələblər səviyyəsində qurulmasına diqqət yetirərək, əməkdaşların təhlükəsiz iş şəraiti ilə təmin edilməsi, fövqəladə hallardan qorunması istiqamətində həyata keçirilən tədbirləri müsbət qiymətləndiriblər. Mingəçevir Dövlət Unuversitetində də informasiya texnologiyalarının mülki müdafiənin işini təşkilində əhəmiyyətinə həsr edilmiş maarifləndirici tədbir keçirilib. Universitetin Mexanika kafedrasının müdiri, dosent Mahir İsmayılov şıxışı zamanı bildirib ki, Ümumdünya Mülki Müdafiə Gününün qeyd edilməsində əsas məqsəd dünya ictimaiyyətinin diqqətini mülki müdafiə xidmətlərinə, insanların və onların əmlakının xilas edilməsinə, təhlükəsizliyinin təmin edilməsinə və ətraf mühitin qorunmasına yönəltməkdir. Risk və təhlükə vəziyyətlərində informasiya texnologiyalarının əhəmiyyəti barədə məlumat verən M.İsmayılov təbii fəlakətlərin baş verməsinin proqnozlaşdırılması və ondan sonrakı dövrdə rəqəmsal texnologiyalardan istifadənin faydalarından bəhs edib. Qeyd edilib ki, gənclərin hərtərəfli inkişafını diqqət mərkəzində saxlayan MDU-da tələbələrin fövqəladə hallarda mülki müdafiə hazırlığının təmin edilməsi ilə bağlı müvafiq maarifləndirici tədbirlərin keçirilməsinə xüsusi önəm verilir.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev ”Şərq”ə açıqlamasında qeyd etdi ki, hazırda rəqəmsal texnologiyalar təbii fəlakətlərin öyrənilməsi və proqnozlaşdırılmasında ən mühüm vasitədir:**

- Mülki müdafiədən danışırıqsa, əhalinin təhlükəsizliyinin təminatı ilk sırada dayanır. Qardaş Türkiyədəki zəlzələ dəhşəti göstərdi ki, təbii fəlakətləri proqnozlaşdırmaq nə qədər mümkün və vacibdirsə, qabaqlayıcı tədbirlər görmək də bir o qədər vacib və mümkündür. Hazırda elə texnologiyalar mövcuddur ki, təbii fəlaskətlərin növünü, miqyasını müəyyənləşdirir. Peyk vasitəsilə kosmosdan görüntülər əldə edilir, yerin quruluşu, qatlarda baş verən proseslər, dəyişikliklər, hamısını qeydə almaq, görtüntülər əldə etmək mümkündür. Bu imkanlardan faydalanmaq lazımdır. Müasir texnologiyalar, rəqəmsallaşma təhlükələrin önlənməsinə kömək edir. Zəlzələ zamanı insanların xilasında lazer cihazlarından necə uğurla istifadə edildi. Bu cür vasitələr təkcə təbii fəlakətlər zamanı deyil, gündəlik həyatda da istifadə edilməlidir. Məsələn, şəhər infrastrukturunun qurulmasında, şəhər təsərrüfatının yeraltı şəbəkəsinin yoxlanması, onlara nəzarət məsələlərində müasir texnologiyalar tətbiq edilməlidir. Digər məsələ əlaqədar qurumların əlaqəli şəkildə çalışmasıdır. Bu məsələdə də rəqəmsal texnologiyaların istifadəsi və onlara üstünlük verilməsi işin təşkilində böyük əhəmiyyət daşıyacaq. İnformasiyaların ötürülməsində müasir kommunikativ üsullarla işləmək lazımdır. Təhlükəli vəziyyətlərdə informasiya texnologiyalarından istifadəyə önəm verilməlidir. Fiziki gücün yetmədiyi yerdə cihazlar önə keçməlidir. Biz bunu zəlzələ dağıntılarının aradan qaldırılmasında və insanların xilası zamanı gördük. Reallıq artıq bunu tələb edir ki, müdafiə və təhlükəsizliyin təminatında rəqəmsal texnologiyalardan istifadə vacibdir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Köhnə binaların sayı "n" qədərdir

## Ciddi araşdırılsa, qəzalı binaların sayı daha da çox olar




### Meriyanın paytaxtın mənzil fondunun vəziyyətinə nəzarətin gücləndirilməsi ilə bağlı tapşırıqlar verməsi müsbət haldır

**Bakı Şəhər İcra Hakimiyyətinin struktur bölmələrinə qəzalı vəziyyətdə olan binalarla bağlı tapşırıqlar verilib. Məsələ İcra Hakimiyyətində paytaxtın təsərrüfat strukturlarının rəhbərlərinin iştirakı ilə geniş tərkibdə keçirilən müşavirədə müzakirə olunub.**

Müşavirədə paytaxt sakinləri üçün son dərəcə aktual olan qəzalı vəziyyətdə olan binaların problemi qaldırılıb. Bildirilib ki, qəzalı binaların əksəriyyəti sovetlər dövründə tikilib və onların istismar müddəti başa çatıb.

Qeyd edilib ki, söhbət əsasən ”Xruşşovka” adlandırılan beşmərtəbəli binalardan, yataqxanalar və digər tikililərdən gedir və onların siyahısı daim yenilənir.

Xüsusilə qeyd olunub ki, ölkə rəhbərliyinin səyləri nəticəsində son 5 ildə Bakıda 1239 qəzalı bina sökülüb, on minlərlə insan yeni mənzillərə köçürülüb və ya müvafiq kompensasiya alıb.

Qeyd olunub ki, hazırda bu istiqamətdə işlər davam edir və Nazirlər Kabinetinin nəzarətindədir. Məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin struktur bölmələrinə paytaxtın mənzil fondunun vəziyyətinə nəzarəti gücləndirmək tapşırılıb.

Qeyd edək ki, dünya praktikasında binanın qəza vəziyyəti, binanın önəmi, ətraf mühit kimi amillər nəzərə alınaraq qəzaya müdaxilə edilir. Binanın qəzalı olduğu müəyyən edildikdən sonra qəzanın səviyyəsi, növü və şəklinə görə müdaxilə planı hazırlanır və icra edilir. Bəzən əgər daşıyıcı sistemin gücləndirilməsi fayda vermirsə, binanın sökülməsi çıxış yollarından biri olur. Texnologiya inkişaf etdikcə, əsasən də inşaat-kimya sahəsində bina konstruksiyalarının gücləndirilməsi texnologiyaları da inkişaf edir. Əgər bir sütunun gücləndirilməsinə xeyli metal, qaynaq işləri, daşınma kimi faktorlar tələb olurdusa, hazırda rulon halında rahat daşına bilən və icra edilə bilən materialla iş görülə bilir.

> “Ən azından qeydə alınacaq qəzalı binalarla bağlı müəyyən addımlar atılacaq ki, bu da baş verə biləcək təhlükənin qarşısını alacaq”

Ekspertlər isə hesab edir ki, dövlət ölkə ərazisində inşa edilən istənilən tikiliyə görə məsuliyyət daşımalıdır. Binanın qəzalı olmasının bir sıra səbəbi var və onları vaxtında, hər birinə özəl yanaşma ilə aradan qaldırmaq lazımdır. Qəzalı binalara insan həyatının ən dəyərli amil olduğunu prioritet olaraq qəbul edərək yanaşmaq lazımdır. Məsələn, bir binanın sökülüb-sökülməməsi qərarı, onun insan həyatı üçün təhlükə yaratmasına bağlıdır. Təhlükə yaradırsa, restavrasiyası mümkün deyilsə və ya maliyyəti büdcəni aşırsa, deməli, sökülməsi qaçılmazdır. Bu misal bir tarixi binaya da aid ola bilər. Yenə də o bina təhlükəli vəziyyətdə saxlanılmamalı, bu və ya digər qərar verilərək müdaxilə edilməlidir.

**Əmlak eksperti Elnur Fərzəliyevin sözlərinə görə, daha ciddi araşdırılsa, qəzalı binaların sayı daha da artıq olar:** ”Sözügedən binaların əksəriyyəti sakinlər tərəfindən aidiyyəti qurumlara müraciət olunduqdan sonra yoxlanış aparılaraq qəzalı kimi qeydiyyata alınıb. Yoxlanılmayan köhnə binaların da sayı ”n” qədərdir. Bakı Şəhər İcra Hakimiyyətinin qəzalı vəziyyətdə olan binalara, ümumilikdə paytaxtın mənzil fondunun vəziyyətinə nəzarətin gücləndirilməsi ilə bağlı tapşırıqlar verməsi müsbət haldır. Ən azından qeydə alınacaq qəzalı binalarla bağlı müəyyən addımlar atılacaq ki, bu da baş verə biləcək təhlükənin qarşısını alacaq”.

**E.Fərzəliyevin sözlərinə görə, hazırda paytaxtda köhnə binaları söküb yerində təzə bina tikənlər özəl şirkətlərdir:** ”Əmlak bazarına nəzər salsaq, tikinti ilə məşğul olan şirkətlər müştəri araşdırması aparır, daha sonra ümumi ərazi üzrə qiyməti hesablayaraq söküntü işlərinə başlayırlar. Paytaxtın elə əraziləri var ki, orada qəzalı vəziyyətdə binalar olsa da, həmin tikililəri söküb yenisini tikmək tikinti şirkətləri üçün sərfəli deyil. Əslində qısa müddətdə bütün qəzalı binaların sökülüb tikilməsi mümkün deyil. Qəzalı və istismar müddəti bitən çoxmənzilli yaşayış binaları sökülənə qədər həmin binalarda tikinti-bərpa işləri aparmaq lazımdır. Buna isə  çox böyük maliyyə lazımdır. Ümid edirəm ki, nəzarət tədbirlərinin gücləndirilməsi fonunda qəzalı binalar MTK-lar tərəfindən sökülüb yenisi ilə əvəzlənənə qədər müvafiq qurumlar qəzalı binalarla bağlı müəyyən təhlükəsizlik tədbirləri görəcək”.

**Şəymən**



# Bakıda tikilən binalar o qədər də təhlükəli deyil

## Problem sonradan başlayır, təmir zamanı binaların kolonları sökülür

**Bakı Şəhər İcra Hakimiyyətinin struktur bölmələrinə qəzalı vəziyyətdə olan binalarla bağlı tapşırıqlar verilib.**

Məsələ İcra Hakimiyyətində paytaxtın təsərrüfat strukturlarının rəhbərlərinin iştirakı ilə geniş tərkibdə keçirilən müşavirədə müzakirə olunub. Müşavirədə paytaxt sakinləri üçün son dərəcə aktual olan qəzalı vəziyyətdə olan binaların problemi qaldırılıb. Bildirilib ki, qəzalı binaların əksəriyyəti sovet dövründə tikilib və onların istismar müddəti başa çatıb.

Qeyd edilib ki, söhbət, əsasən ”Xruşşovka” adlandırılan beşmərtəbəli binalardan, yataqxanalar və digər tikililərdən gedir və onların siyahısı daim yenilənir.

Xüsusilə vurğulanıb ki, ölkə rəhbərliyinin səyləri nəticəsində son beş ildə Bakıda 1 239 qəzalı bina sökülüb, onminlərlə insan yeni mənzillərə köçürülüb və ya müvafiq kompensasiya alıb.

Bildirilib ki, hazırda bu istiqamətdə işlər davam edir və Nazirlər Kabinetinin nəzarətindədir. Məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin struktur bölmələrinə paytaxtın mənzil fondunun vəziyyətinə nəzarəti gücləndirmək tapşırılıb.

Lakin köhnə binalarla yanaşı, yeni istismara verilən binaların da çökmə təhlükəsi olduğunun şahidi oluruq.

Məsələn, ”Bakupost.az”a yerli sakinlər tərəfindən ”Qobu Park-2” yaşayış kompleksində 17-ci binanın uçmaq təhlükəsi olduğu çatdırılıb.

Sakinlərin dediyinə görə, ”Kristal Abşeron” tikinti şirkətinin inşa etdiyi bina artıq əyilib.

”Məsələdən ”Kristal Abşeron” şirkətinin rəhbərliyinin də xəbəri var. Əraziyə traktor gətiriblər. Divarlarda deşik açırlar ki, bərkitmə işi aparsınlar. Amma bunu savadsızcasına edirlər. Əyilən binanı bu üsulla saxlamaq, bərkitmək mümkün deyil. O bina mütləq sökülməlidir”, - deyə sakinlərdən biri bildirib.

Məsələ ilə bağlı ”Kristal Abşeron” şirkəti ilə əlaqə saxlanılsa da, şirkətdən məsələnin araşdırılıb, sabah məlumat veriləcəyi bildirilib.

**Məsələyə münasibət bildirən memar Elçin Əliyev ”Şərq”ə vurğulayıb ki, son zamanlarda istifadəyə verilən binaların tikintisi zamanı təhlükəsizlik qaydalarına ciddi riayət edilir:** ”Bu gün Bakıdakı binaların tikilişinə ciddi nəzarət olunur. Bina hazır olduqdan sonra isə insanlara verilir və heç kəs ona nəzarət etmir. Əsas təhlükə məhz burada başlayır.

Mənzillərə köçən şəxslər təmirə başlayır və bu zaman divarların planlaması dəyişdirilir, kolonlar sökülür. Yəni binanın içərisində hansı dəyişikliklərin olduğu dəqiq bilinmir.

Təhlükə isə bundan dolayı başlayır. İlk növbədə tikilmiş binaların konstruksiyalarına və mənzillərinə baxış keçirməyin lazımlı olduğunu hesab edirəm”.

**Nihat Müzəffər**

# Restoranda kütləvi zəhərlənmə

## "Sahibkarları pul maraqlandırır"

"Restoranlar qida mütəxəssisləri ilə işləməlidirlər. Yəni qida koordinatoru olmalıdır"

**"Mal, toyuq, balıq əti riskli məhsullar sırasına daxildir. Sadalanan məhsullardan hazırlanmış yeməklər toy başlamazdan əvvəl süfrəyə düzülür".**

*Bunu "Şərq"ə qida mütəxəssisi Ağa Salamov Beyləqanda yerləşən şadlıq evindəki kütləvi zəhərlənmədən danışarkən deyib. O, diqqətə çatdırıb ki, vaxtından öncə yeməklərin süfrədə olması mikrobioloji çirklənməyə gətirib çıxarır:* "Sözügedən zəhərlənmə hadisəsi çox güman ki, toyuq və ya turşulardan baş verib. Qida zəhərlənməsindən söhbət gedirsə, 90/100 faiz toyuğun üzərində durmaq olar. Çünki adıçəkilən məhsul zəhərlənmələri daha risklidir və geniş yayılıb. Toyuğun saxlanma, bişirilmə, tədqimat texnologiyası kobud şəkildə pozulur. Təəssüf ki, sahibkarların çoxusu məhsulun saxlanma şəraitindən, emal prosesindən, bir sözlə, qidanın süfrəyə qədər qət etdiyi yoldan məlumatsızdırlar. Həmçinin mayonezli qidaları zəhərlənmə səbəbinə misal çəkmək olar.



"Azərbaycanda tək-tük müəssisə var ki, savadlı qida texnoloqları ilə işləyir"

Salatları otaq temperaturunda hazırlayırlar, saatlarla qalır. Süfrəyə verilir, yenə saatlarla qalır. Məclis iştirakçıları da restorana daxil olan kimi yeməyə başlamırlar. Bir az yeyib, rəqs etməyə qalxırlar. Yenidən əyləşib, süfrədə qalan yeməkləri yeyirlər. Nəzərə almaq lazımdır ki, mayonez riskli qidalardandır".

Qida mütəxəssisi diqqətə çatdırıb ki, restoran sahiblərini ancaq pul maraqlandırır: "Onların sahə üzrə bilikləri də yoxdur. Belə olan halda, qida mütəxəssisləri ilə işləməlidirlər. Yəni qida koordinatoru olmalıdır. Müəssisədə ayda 4-5 dəfə, yaxud da həftədə 3 dəfə nəzarəti gücləndirməlidirlər. Təlimlər təşkil olunmalıdır. Soyuducuların dərəcələrinə baxmalıdırlar. Azərbaycanda tək-tük müəssisə var ki, savadlı qida texnoloqları ilə işləyir.

Ölkədə güclü mütəxəssislərin sayı çox azdır. Bir-iki şirkət mövcuddur ki, bizi dəvət edirlər, nəzarəti gücləndirirk. Çünki əks təqdirdə, süfrəyə qədər qidanın qət etdiyi yolda qida zəncirinin qırılması zəhərlənməyə birbaşa səbəbdir. Məsələn, kabab ətləri otaqda saatlarla asılı vəziyyətdə qalır.

Doğranır, şişə çəkilir, yenə də otaq temperaturunda saxlanılır. Artıq bişdikdə mikrobioloji çirklənmiş, ağırlaşmış ət hesab edilir. Süfrəyə çatanda zəhərlənməyə gətirib, çıxarır. Müəssisədə təlimverici bir insan olmadığına görə kritik nöqtələrin analizini gücləndirə bilmirlər. Şeflərin, baş aşpazların bəlkə də, heç peşə təhsili yoxdur. Soruşsan, əl qabiliyyəti əladır, gözəl yeməklər bişirir. Amma bişirmə, soyutma, isitmə texnologiyasından xəbərsizdir. Əlavə olaraq, şefə də mühəndis nəzarət etməlidir. Eyni zamanda botulizm zəhərlənməsi də baş verə bilər. Tərəvəzlər torpaqdan çıxarılıb, yaxşı yuyulmadıqda, təmizlənmədikdə və turşuları qoyulduqda zəhərlənməyə yol açır. Çünki torpaqda botulizm bakteriyası var".

*Qeyd edək ki, Beyləqanda yerləşən şadlıq evində kütləvi zəhərlənmə olub. Hadisə fevralın 28-də baş verib. Toyda iştirak edən 21 nəfər martın 1-i səhər saatlarında xəstəxanaya müraciət edib. Onların mərasimdə təqdim edilən paytaxt salatından zəhərləndikləri məlum olub.*

**Sücayət Mehti**

# Tiktok gənclərə yaxşı örnək deyil

## Bu platforma bağlansa cəmiyyət heç nə itirməyəcək

**18 yaşından kiçik olan şəxslər üçün sosial şəbəkədən istifadə müddəti gündə 60 dəqiqə ilə məhdudlaşdırılacaq. Bundan əlavə, sosial şəbəkə valideynlərə uşaqları üçün qrafik təyin etməyə imkan verəcək və tiktoka sərf etdikləri vaxt haqqında həftəlik hesabatlar göndərəcək.**

Qeyd edək ki, ABŞ-nin dövlət qurumları tiktoku korporativ cihazlardan siləcək. Belə ki, ABŞ Senatı dövlət qurumlarına məxsus cihazlarda tiktokun qadağan edilməsinə səs verib. Eyni zamanda Avropa Komissiyası işçilərə rəsmi smartfonlarda tiktokdan istifadəni qadağan edib. Görünən odur ki, sözügedən platformanın ABŞ üçün təhlükəsi nəzərə alınaraq dövlət tərəfindən belə bir addım atılıb. Bu məsələ Azərbaycanda tiktokun fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı məsələni yenidən gündəmə gətirib. Belə ki, son zamanlar tiktok sosial platformasının bağlanılması haqqında fikirlər səsləndirilir. Buna səbəb kimi isə orada qeyri-etik və mənasız kontentin yayılması göstərilir.

İKT üzrə ekspert Orxan Rzayevin sözlərinə görə, Azərbaycanda tiktok şəbəkəsinin fəaliyyəti qənaətbəxş deyil və bu platformadan heç də yaxşı məqsədlər üçün istifadə olunmur: "Tiktok gənclərə yaxşı örnək deyil və insanlar burada boş vaxt itirirlər. Hətta tiktokerlərin "fəaliyyəti"nə görə hüquq-mühafizə orqanlarına çağırıldıqları və həbs olunduqlarını müşahidə edirik. Şəxsən mən də bu platformanın fəaliyyətini müsbət qiymətləndirmirəm və bağlanmasını mümkün hesab edirəm. Cəmiyyət olaraq bundan heç nə itirməyəcəyik".




ABŞ-nin dövlət qurumlarının tiktoku korporativ cihazlardan silməsinə gəldikdə isə ekspert deyib ki, ABŞ və Çin rəqib olduğundan Birləşmiş Ştatlar təhlükəsizlik tədbirlərini gücləndirmək və informasiya sızmasının, eləcə də kəşfiyyat xarakterli məlumatların yayılmasının qarşısını almaq məqsədilə tiktokun fəaliyyətini məhdudlaşdırmaq istəyir.

**"Altay" Sosial-Araşdırmalar Mərkəzinin rəhbəri, sosioloq Elçin Bayramlı da "Şərq"ə açıqlamasında tiktokun bağlanmasının tərəfdarı olduğunu deyib.**

Onun sözlərinə görə, təkcə tiktok yox, hətta instaqramın da fəaliyyətini məhdudlaşdırmaq lazımdır: "Tiktok və instaqram insanların beyninin "yuyulması", dəyərlərin məhv olmasına səbəb olur. Xalqımızın son 30 ildə aparılan qlobal psixotron terrordan salamat qalan mənəvi dəyərləri də bu şəbəkələrdə məhv edilir, gənc nəsil avara, əyləncə və bambılılıq üzrə ümummilli çempionat iştirakçısı kimi yaşayan amorf məxluqlara çevrilir. Ümumiyyətlə, bütün sosial şəbəkələr saxta və zərərli məlumat yığınıdır. Dəyərlərimizi məhv edən təbliğat meydanıdır. Zərəri faydasından min dəfə çoxdur. İstənilən vaxt bir ölkədə təxribatlar və vətəndaş müharibələri törətmək gücündədirlər. Qlobal şəbəkələrin açarı bizim əlimizdə deyil. Bu mərkəzlər istədikləri informasiyanın sürətlə yayılmasını təmin edir, özlərinə sərf etməyən məlumatların isə bloklanmasını təmin edirlər".

E.Bayramlı Azərbaycanda bütün sosial şəbəkələrin bağlanması və milli platformanın yaradılması təklifi ilə çıxış edib: "Əks halda olan-qalan dəyərlərimiz də məhv olub gedəcək, ortalıq saxta xəbər, dezinformasiya, təxribat xarakterli materiallarla dolacaq. Gənc nəsil də zombi kimi yetişəcək. Bunun qarşısı alınmalıdır".

**Psixoloq Orxan Oruc isə deyib ki, tiktok kimi sosial şəbəkələr vasitəsilə insanlar çox zəif bacarıqları ilə qısa zamanda məşhurlaşa bildilər.** Xüsusilə də bəzi insanlarda daxildən özünü sübutetmə, digərlərinə özünü təsdiqetmə instinkti var. Həmin hissin tələblərinə uyğun gələn ehtiyacların qarşılanmasına tiktok kimi sosial şəbəkələr kömək edir. Bu baxımdan deyə bilərik ki, tiktok bayağı, ümumi intellekt səviyyəsi aşağı olan şəxslərə video çəkməklə məşhurlaşmaq üçün imkan yaratdı, bunun təz bir zamanda kütləviləşməsi və insanlar tərəfindən istifadə olunmasına səbəb oldu. Onun sözlərinə görə, sözügedən sosial şəbəkənin mənfi tərəfləri olduğu kimi, müsbət cəhətləri də var: "Sosial şəbəkənin bağlanması ilə bağlı qərar ölkələrin siyasətindən asılıdır. Ola bilər ABŞ hesab edir ki, hansısa sosial şəbəkənin zərəri faydasından daha azdır. Bu baxımdan sözsüz ki, düzgün, yaxud səhv qərar olmasını demək çətindir. Tiktok sayəsində bəzi istedadlı insanlar var idi ki, onların potensiallarının aşkarlanması, insanlar tərəfindən rəğbət qazanmasına səbəb oldu. Bu baxımdan faydaları da olur".

**Şəymən**

# 6 istiqamət üzrə...

## Şəhərlərarası müntəzəm avtobus marşrutları müsabiqəyə çıxarılır

**Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) şəhərlərarası sərnişindaşıma xidmətinin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər çərçivəsində Ceyranbatan-Xocəsən metro stansiyası-Ceyranbatan, Masazır-Xocəsən metro stansiyası-Masazır, Bakı-Lənkəran-Bakı, Bakı-Qusar-Bakı, Bakı-Qusar (SDK)-Bakı, Bakı-Xudat-Bakı şəhərlərarası müntəzəm avtobus marşrutlarını müsabiqəyə çıxarır.**

AYNA-dan bildirilib ki, müsabiqə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"na uyğun olaraq təşkil edilir.



Müsabiqədə iştirak etmək üçün iddiaçılar tələb olunan sənədləri martın 17-si saat 17:00-dək, ixtisas məlumatlarını isə aprelin 7-si saat 17:00-dək Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (ünvan: Bakı şəhəri, Tarzən Hacı Məmmədov küçəsi 5, əlaqələndirici şəxs: Ramil Musayev - tel.: 012-567-99-76, 055-512-34-97, e-poçt: ramil.musayev@ayna.gov.az) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaq.

İddiaçıların təklifləri komissiya tərəfindən Ceyranbatan-Xocəsən metro stansiyası-Ceyranbatan, Masazır-Xocəsən metro stansiyası-Masazır, Bakı-Lənkəran-Bakı, Bakı-Qusar-Bakı istiqamətlərində 5 Lot üzrə aprelin 14-də, Bakı-Qusar-Bakı istiqamətində hərəsində 5 Lot üzrə aprelin 18-i və 21-də, Bakı-Xudat-Bakı, Bakı-Qusar-Bakı və Bakı-Qusar (SDK)-Bakı istiqamətlərində 5 Lot üzrə aprelin 25-də, Bakı-Xudat-Bakı istiqamətində 5 Lot üzrə aprelin 28-də müsabiqə keçirilən zaman açılacaq. İddiaçılar və onların müvafiq qaydada rəsmiləşdirilmiş sənədlə müvəkkil etdikləri səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

Şəhərlərarası marşrut xətləri qanunvericiliyin tələblərinə uyğun olaraq, mərhələli qaydada müsabiqəyə təqdim edilir. Məqsəd sərnişindaşıma sahəsində göstərilən xidmətin keyfiyyəti, təhlükəsizliyi və rahatlığının artırılmasıdır.

# Yaponiyada mənşəyi bilinməyən daha bir metal şar aşkarlanıb



**Yaponiyanın cənub-qərbində yerləşən Kaqoşima prefekturasının hakimiyyət orqanları adaların birinin sahilində metal şar aşkarlayıb.**

Azərtac Fuji TV telekanalına istinadla xəbər verir ki, mənşəyi və təyinatı bilinməyən şarın diametri təxminən 1,5 metrə bərabərdir. Kaqoşima prefekturasının hakimiyyət orqanları onun içərisində boşluq olduğunu müəyyənləşdirib. Lakin ağırlığı səbəbindən şarı yerindən tərpətmək çətindir.

Fevralın 21-də ölkənin mərkəzi hissəsindəki Sidzuoka prefekturasının sahilində də oxşar metal şar tapılmışdı. Yerli orqanlar əvvəlcə onun partlaya biləcəyindən ehtiyatlansa da, sonradan şarın içərisində partlayıcı maddə aşkarlanmamışdı.

Şarların sahildə necə peyda olduğu barədə müəyyən fərziyyələr irəli sürülür, lakin hadisənin dəqiq səbəbi hələ qeyri-müəyyən olaraq qalır.

# Kartofu səhv yeyirsiz

## Tərəvəz, duzlu kələm ilə yemək məsləhətdir



**"Kartofla qidalanma çəkinin artmasına səbəb ola bilər. Nişastalı tərəvəz çoxlu yağ, yağlı ətlər, həmçinin sıx yağlı souslar ilə müşayiət olunur.**

Kartofu ətsiz, heyvan zülalından ayrı - məsələn, tərəvəz, duzlu kələm ilə yemək məsləhətdir".

"Medicina" xəbər verir ki, diyetoloq Zarina Serebrova karfofu gündüz, günün birinci yarısı qəbul etməyi tövsiyə edib.

"Bu vaxtlarda həzm sistemi daha aktivdir və kartofu daha tez həzmə verir.

Diabet, piylənmə, aşağı turşuluq səviyyəsi olan qastritdə kartof çox ehtiyatla yeyilməlidir. Pəhrizdə onun miqdarı çox aşağı olmalıdır.

Oturaq həyat tərzi keçirən bir çox insanlar qəbzlik və metoirizmə meyillidirsə, pəhrizdə çox miqdar kartof qəbulu zərərli ola bilər.

Əgər insanda fərdi dözümlülük varsa, kartof qəbulundan tamamilə imtina edə bilər və orqanizmdə heç bir fəsad törətməyəcək".

**Elan**

Sabunçu rayonu, Maştağa qəsəbəsi üzrə nümayəndəliyi aparatının 20.11.1997-ci il tarixli 11 saylı qərarı ilə A № 036224 Mehtiyev Əhməd Məmməd oğluna məxsus 300 kv.m sahəsi olan 1319 "B" saylı fərdi yaşayış evinin torpaq sahəsinin plan və ölçüsü itdiyi üçün etibarsız sayılır.

"Azəriışıq" ASC tərəfindən Asan Xidmətlə İş və Elektron İdarəetmə Departamenti-Perspektiv İnkişaf İdarəsi CİS şöbəsi Elektron İdarəetmə Qrupunun mühəndisi Rzazadə Ayselə məxsus İD CARD NO: 09653 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 600



## ÜST: Pandemiya bitir

Pandemiya bitir. Bunu Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşünə videoformatda qoşulan Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus deyib.

"İndi hər bir ölkə öz üzərinə düşəni etməli, gələcək pandemiyalara hazırlıqlı olmalı və pandemiyadan sonrakı bərpada iştirak etməlidir", - o qeyd edib.

## III Çarlzın taxtı tacqoymadan öncə təmirə göndərildi



**Britaniya monarxlarının taxtı III Çarlzın tacqoyma mərasimindən əvvəl bərpaya göndərilib.**

Oxu.az xəbər verir ki, ekspertlərin fikrincə, 700 illik palıd taxt "son dərəcə kövrəkdir". Bərpaçılar kürsünü təmizləyir və soyulmuş zərli təbəqələri bərpa edirlər.

Taxt 1272-ci ildən 1307-ci ilə qədər hökmranlıq edən Kral I Edvardın əmri ilə hazırlanıb. O vaxtdan bəri, demək olar ki, bütün tacqoyma mərasimlərində istifadə olunur.

Bildirilir ki, artıq dörd aydır ki, taxtın bərpası üzərində iş gedir.

*Xatırladaq ki, III Çarlzın tacqoyma mərasimi mayın 6-da keçiriləcək.*

## Messi komanda yoldaşlarına qızıl telefon payladı



**Argentina millisinin və PSJ-nin futbolçusu Lionel Messi yığmanın heyətində DÇ-2022-də birlikdə çıxış etdiyi komanda yoldaşlarına bahalı hədiyyələr verib.**

Axşam.az xəbər verir ki, bu haqda "The Sun" məlumat yayıb. Futbolçu komanda yoldaşlarına qızıl təbəqəsi ilə örtülmüş "İphone 14 Pro" markalı mobil telefon hədiyyə edib. Messi 35 ədəd telefona ümumilikdə 175 min funt sterlinq (bugünkü məzənnə ilə 357 min manat) xərcləyib.

O, həmçinin bu hədiyyədən milli komandanın işçilərinə də paylayıb.

*Qeyd edək ki, Messi Argentina millisi ilə DÇ-2022-nin qalibi olub. O, həmçinin mundialın ən yaxşı futbolçusu seçilib.*

## Göl alovlanmağa başladı

### Zəlzələ zamanı qeyri-adi hadisə yaşanıb



**Türkiyədə zəlzələ zamanı ortaya çıxan görüntülər şok yaradıb.**

Oxu.az xəbər verir ki, Adıyamanın Gölbaşı məhalında 2 göl zəlzələnin meydana gəldiyi anlarda alovlanmağa başlayıb. Gölün suyu qaynayıb, alovlar havaya qalxıb.

Təşvişlə çölə çıxan vətəndaşlar Gölbaşı və İnekli gölündə alovların artdığının fərqinə vararaq metrlərlə yüksələn tüstünü lentə alıblar.

## 6 ay davam edəcək

### ABŞ, BƏƏ və Rusiyanın birgə kosmik missiyasına start verilib



**Amerika Birləşmiş Ştatları, Birləşmiş Ərəb Əmirlikləri və Rusiya astronavtlarının birgə kosmik missiyasına start verilib. Onları Beynəlxalq Kosmik Stansiyaya çatdıracaq "SpaceX" kompaniyasının "Falcon" raketi ABŞ-nin Kennedi Kosmik Mərkəzindən fəzaya buraxılıb.**

NASA-nın saytı xəbər verir ki, 6 ay davam edəcək kosmik missiya kosmik fəzada yeni tədqiqatlar aparacaq. BƏƏ-dən olan Sultan Əl-Neyadi uzunmüddətli kosmik səyahətə yollanan ilk ərəb astronavt olub.

Bu kosmik missiya ötən ilin oktyabrından bəri Beynəlxalq Kosmik Stansiyada olan ABŞ-Rusiya-Yaponiya astronavtlarını əvəz edəcək. Missiyanın rəhbəri Stefen Bouen bildirib ki, Ukrayna müharibəsi ilə əlaqədar ABŞ ilə Rusiya arasında gərginliyə baxmayaraq, iki ölkə kosmos sahəsində əməkdaşlığı davam etdirir.



# Yaponiya əhalisi azalır

## Hökumət hərəkətə keçdi

**Yaponiyada yeni doğulan körpələrin sayında kəskin azalma hökuməti təcili addımlar atmağa vadar edib. "Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, son illərdə Yaponiyada doğuş sayında mənfi rekord müşahidə edilir. Yaponiya Səhiyyə Nazirliyinin məlumatına görə, ölkədə 2022-ci ildə 799 min 728 doğum faktı qeydə alınıb.**

Və bu, son 40 ildə ən aşağı göstəricidir. Yaponiyada ölüm göstəricisi də son illərlə müqayisədə artıb. Ötən il 1,58 milyon insanın ölümüylə bu rəqəmlər də rekord səviyyə elan edilib. Yapon hökuməti əhali sayının artması üçün yeni bir dövlət qurumu təsis ediləcəyini bildirib. Hökumət ölkədə 10 ildən artıqdır ölüm hallarının doğumu üstələməsindən narahatdır və bunu getdikcə böyüyən bir problem hesab edir. Ölkədə yaşlı təbəqənin artmasıyla hökumət onların təqaüdlərini, tibbi xidmətlərini qarşılamaqda çətinlik çəkir. Qeyd edilir ki, Yaponiyada əhali sayı 1980-ci illərdəki iqtisadi yüksəlişdən bəri sürətlə azalmaqdadır. Statistikaya əsasən, 2021-ci ildə ölkə əhalisinin sayı 125,5 milyon olub. Doğum səviyyəsi isə 2.1 faiz təyin edildiyi halda, 1.3 faiz təşkil edir. Bu isə ölkə əhalisinin getdikcə azalmasına səbəb olur. Məlumdur ki, Yaponiya dünyada uzunömürlülərin çox olduğu ölkədir. 2020-ci ilin hesablamalarına görə, ölkədə hər 500 nəfərdən biri 100 və daha yüksək yaşdadır. Yaponiya baş naziri Fumio Kishida məhz bu reallıqdan çıxış edərək "sosial layihələri davam etdirməkdə çətinlik çəkirik", söyləyib. Baş nazir ölkənin gələcəyini təhdid edən problemin çözülməsi məqsədilə ailələrə uşaqlarını böyütmələri üçün dəstək veriləcəyini deyib. Baş nazir qeyd edib ki, bu, hökumətin ən vacib vəzifəsidir. "Bundan artıq gözləyə bilmərik. Aprel ayında yeni bir qurum təsis edəcəyik, uşaqlarla bağlı sosial layihələrə ayrılacaq vəsaiti 2 dəfə artıracağıq. Lakin mütəxəssislər problemin təkcə maliyyə dəstəyi ilə çözülə biləcəyini düşünmür. Bu, çoxşaxəli problemdir və bir ucu da ailələrə söykənir. Şəhərli gənclər övlad sahibi olmaq istəmir, bir çox gənc ailələrsə valideynlərindən uzaqda yaşayır. Biz ailələrin iç-içə yaşamasını təmin etməli, ənənələrin pozulmasının qarşısını da almalıyıq" söyləyən baş nazir gənclərin pandemiya dövründə evlilikdən imtina etdiklərini, ya da daha sonrakı dönəmə keçirdiklərini, gələcəklə bağlı ümidsiz olduqlarını da deyib.

**Məlahət**



# Gündə 11 dəqiqə sürətlə gəzmək...

## Vaxtından əvvəl ölümün qarşısını ala bilər



**Böyük Britaniyada aparılan araşdırma hər gün 11 dəqiqəlik sürətli gəzməyin vaxtından əvvəl ölümün qarşısını ala biləcəyini aşkarlayıb.**

Azərtac StudyFinds saytına istinadla bildirir ki, Böyük Britaniyada yerləşən Kembric Universitetinin tədqiqatçıları sürətli yerimə, rəqs etmək, velosiped sürmək, tennis oynamaq və ya gəzintilərin vaxtından əvvəl ölüm, ürək-damar xəstəlikləri və bəzi xərçəng növləri riskini əhəmiyyətli dərəcədə azalda biləcəyini müəyyən edib.

Tədqiqatda qeyd olunub ki, hər gün 11 dəqiqəlik sürətli gəzinti hər 10 nəfərdən birində ani ölüm riskinin qarşısını ala bilər. Bu sürətli gəzinti həftədə 75 dəqiqə orta intensivlikdə fiziki fəaliyyətə bərabərdir.

Bu kontekstdə tədqiqat qrupu 30 milyondan çox iştirakçını əhatə edən 196 rəyi nəzərdən keçirib. Daha sonra iştirakçıların fiziki fəaliyyət səviyyələri ilə ürək xəstəliyi, xərçəng və vaxtından əvvəl ölüm riski arasındakı əlaqəni araşdırıblar.

İngiltərənin Milli Sağlamlıq Sistemi (NHS) hər həftə ürək döyüntüsünü artıran 150-300 dəqiqə fiziki fəaliyyət və ya tənəffüs sürətini artıran həftədə 75-150 dəqiqə sürətli gəzintini tövsiyə edib.

Kembric Universitetinin tədqiqatına rəhbərlik edən professor Soren Brage, mövzu ilə bağlı verdiyi açıqlamada, fiziki fəaliyyətlə məşğul olmağın insan orqanizminin sağlamlığı üçün hərəkətsizlikdən daha yaxşı olduğunu vurğulayıb: "Həftədə 75 dəqiqə fiziki idmanla məşğul olursunuzsa, bu rəqəmi tədricən artırmağa cəhd edə bilərsiniz".

Kembric Universitetinin professoru həkimi James Woodcock da tədqiqatın nəticələrini qiymətləndirib: "Gəzinti və ya velosiped sürmək kimi fiziki fəaliyyətlər sizin üçün faydalıdır, xüsusən də ürək-damar problemindən əziyyət çəkən şəxslərə faydası əvəzolunmazdır. Eyni zamanda tədqiqatda gəzinti və fiziki aktivlik əhəmiyyətli dərəcədə xərçəng riskini azaltdığı aşkar edilib".

## Kətan parçada elektrik yükü olmur

### Ona görə də mütəxəssislər geyimdə kətan materiallarına üstünlük verməyi tövsiyə edirlər



**Hər kəs müxtəlif vaxtlarda kiminləsə salamlaşarkən, avtomobilin qapısını açarkən və yaxud hər hansı bir əşyaya toxunan zaman sanki onu elektrik vurурmuş kimi bir hiss yaşayır.**

Fiziklərin dediyinə görə, həmin proses əslində hamıda baş verir. Bəziləri daha çox elektriklənir, bəziləri isə az. Bu hər kəsin bədənində elektrik yükü həcminə görə izah olunur. Məsələn, elə adam var ki, sintetik paltarlar geyinir, sintetik aksesuarlardan istifadə edir, lakin bu hal baş vermir. Elə adamlar da var ki, sintetik köynək geyinən kimi hətta adi əşyaya toxunanda belə sanki cərəyan vurur. Azərtac xəbər verir ki, həkim-terapevt Yeganə Cəfərova deyib: "Elektrikləşmə heç bir xəstəliyə səbəb olmur. Müxtəlif fiqurlu cisimlərin, sintetik parça və materialların üzərində elektrik yükü var. Elektrikləşmə də məhz həmin yükün hesabına baş verir".

Onun dediyinə görə, həmin hallarla tez-tez rastlaşanlar evin havasının yüngül və nəm olmasına çalışmalıdırlar. Nəm hava üçün dibçəkdə çiçək saxlamaq, nəm əski ilə evdə təmizlik işləri görmək, evi vaxtlı-vaxtında havalandırmaq lazımdır. Evdəki temperatur imkan verirsə, ayaqyalın gəzmək də məsləhətdir.

Kətan parçada elektrik yükü olmur. Ona görə də mütəxəssislər geyimdə kətan materiallarına üstünlük verməyi tövsiyə edirlər.

## "Şimal limonu"

### Zirinc arterial təzyiqin və qanda şəkərin tənzimlənməsinə müsbət təsir edir



**Zirinc C vitamini ilə zəngin olduğu üçün onu belə adlandırırlar.**

Zirincin tərkibində həm də nadir maddə "berberin" var ki, bu maddə qara ciyərin, öd kisəsinin fəaliyyətinə çox müsbət təsir edir, öd qovucu təsir edir. "Ağır" qidaların mənimsənilməsini sürətləndirir və asanlaşdırır. Bu səbəbdən zirinc tez-tez ət yeməklərinə əlavə olunur. Zirinc arterial təzyiqin və qanda şəkərin tənzimlənməsinə müsbət təsir edir.

Onun tərkibində olan 19 müxtəlif amin turşusu ilə əzələlərin möhkəmlənməsinə yardım edir, orqanizmdən artıq yağların xaric olmasını sürətləndirir. Lipid mübadiləsini tənzimləyir. Dəmləməni hazırlamaq üçün 1 çay qaşığı qurudulmuş zirinc 1 fincan qaynar suda 1/2 saat ərzində dəmlənilir, 1/2 çay qaşığı bal əlavə olunur və içilir. Belə dəmləmə həmçinin immun sisteminə də çox müsbət təsir edir, orqanizmi möhkəmləndirir, orqanizmin virus və bakteriyalara qarşı davamlılığını artırır. Çox gözəl iştahartırıcı təsiri vardır. Zirincin tərkibində A vitamini, beta karotin, zeaksantin olduğuna görə gün ərzində bir ovuc qəbul etmək gözün görmə qabiliyyətini artırır.

**Şəymən**